Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

1 NOYABR 2019-cu il

№ 194 (4092)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

■ səh. 11 ■

# BAKI SLAVYAN UNİVERSİTETİNDƏ PRİMAKOVUN XATİRƏSİNƏ BİRMƏNALI QARŞILANMAYAN TƏDBİR...

Mehriban Əliyevadan siyasət arenasında humanitar, həmrəylik, vətəndaşları toparlayıcı addım - Elçibəyin evinin təmiri... ■ səh. 2 ■

DİN və Baş Prokurorluğun xəbərdarlığından sonra radikalların Bakıda qanunsuz aksiya cəhdinə görə kim məsuliyyət daşıyacaq... ■ səh. 4 ■

Saxta bir "erməni genosidi"nin xatirinə ABŞ-dan anlaşılmayan siyasət - Türkiyə ilə ittifaq pozulur, NATO dağılır... ■ səh. 9 ■

Azərbaycan ümumtürk mənafelərinə sədaqətini bir daha göstərdi - saxta genosidin tanınmasına qarşı demarş... ■ səh. 13 ■

İsrail Bakıdakı Səfirliyinin fəaliyyətini niyə dayandırdı... ■ səh. 3 ■

Azərbaycanın iqtisadi strategiyası türk dövlətlərinin inteqrasiyasını sürətləndirir ■ səh. 5 ■

Qondarma "Artsax"ın adından Krımda konsert və ABŞ-da "müstəqillik bayramı"... ■ səh. 12 ■

ABŞ-ın qərarı, qızışan "valyuta müharibələri" manat məzənnəsi ətrafında yeni problem yaradır ■ səh. 14 ■



■ səh. 8-9 ■

## Prezident təcrübəli, bir qədər yaşlı insanlara qarşı qara kampaniya təşkil edənlərə sərt xəbərdarlıq etdi...



**Şoyqudan İlham Əliyevin faşist caniləri qəhrəmanlaşdıranlar barədə bəyanatına dəstək...** ■ səh. 5 ■

**Şoyqunun Bakıdan əvvəl İrəvana getməsinin sirri açıldı - Azərbaycanın Qarabağ diplomatiyasının bir üstünlüyü də göründü** ■ səh. 6 ■



**Radikallar ölkədə sabitliyi tək-tək pozmaqdan birləşərək pozmaq taktikasına keçir...** ■ səh. 4 ■

■ səh. 2 ■ "Sıfır güclərin" hansı sayda birləşməsi ilə güc yaranmaz - Aydın Quliyev Arif Hacılının çağırışına cavab verdi



■ səh. 7 ■ Fəzail Ağamalı "ictimai rəyə təsir göstərən qəzetlərin çoxu maliyyələşmədən kənarda qalıb" sözlərini necə əsaslandırdı?



■ səh. 10 ■ "Heydər Əliyev Rəfael Allahverdiyevə dedi ki..."



■ səh. 3 ■ "Milli Şura" 2 noyabr mitinqini təxirə salmaqla bağlı çağırış etdi, müsavatçılardan da dəstək aldı



■ səh. 12 ■ ABŞ-dan saxta genosidə dəstək və türkdilli dövlətlərin fövqəladə toplantısı...



## Prezident İlham Əliyev Yevlax və Xaçmazın icra başçılarını dəyişdi

**Prezident İlham Əliyev Qoca Səmədovu Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən, Şəmsəddin Xanbabayevi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edib.**

Prezident İlham Əliyev digər sərəncamları ilə Elnur Rzayevi Xaçmaz Rayon İcra Hakimiyyətinin, Anar Tağıyevi Yevlax Rayon İcra hakimiyyətinin başçısı təyin edib.

## Birinci vitse-prezident Mehriban Əliyeva Bakıda açılışlarda...

**Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva oktyabrın 31-də Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsindəki 10 saylı sanatoriya tipli internat məktəbində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.**

Birinci vitse-prezident internat məktəbinin təmirdən əvvəlki və sonrakı vəziyyətini əks etdirən fotostendə baxıb.

Təhsil naziri Ceyhun Bayramov Mehriban Əliyevaya 10 saylı sanatoriya tipli internat məktəbin 1961-ci ildən fəaliyyət göstərdiyini, binada sonuncu dəfə əsaslı təmir işlərinin 2005-ci ildə aparıldığını, mövcud vəziyyət nəzərə alınaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə binada 2018-ci ildə Təhsil Nazirliyi tərəfindən əsaslı təmir və tikinti işlərinə başlandığını bildirib.

Birinci vitse-prezident Mehriban Əliyeva oktyabrın 31-də Bakının Nərimanov rayonundakı 64 saylı körpələr evi-uşaq bağçasında da olub.

Birinci vitse-prezidentə bu körpələr evi-uşaq bağçasında görülən əsaslı təmir işləri barədə məlumat verilib.

## Lavrov Dağlıq Qarabağ münaqişəsinin həllinin axtarışlarında ATƏT-in fəaliyyətini dəstəklədiklərini bildirdi

**Moskva Dağlıq Qarabağ münaqişəsinin həllinin axtarışlarında ATƏT-in fəaliyyətini dəstəkləyir. "Trend"-in məlumatına görə, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvada ATƏT-in baş katibi Tomas Qremingerlə birgə mətbuat konfransı zamanı deyib.**

Nazir, həmçinin, Cənubi Qafqazda sabitliklə bağlı Cenevrə müzakirələrinin vacib rolunu qeyd edib.

S.Lavrov bildirib ki, Rusiya yeni çağırış və təhdidlərlə mübarizədə, eləcə də ümumi məkanda müxtəlif münaqişələrin nizamlanmasında ATƏT fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlı təklifləri dəstəkləyir: "Rusiya ATƏT-in ümumi dialoq məkanı kimi istifadə olunmasının tərəfdarı kimi çıxış edir".

# Mehriban Əliyevadan siyasət arenasında humanitar, həmrəylik, vətəndaşları toparlayıcı addım - Elçibəyin evinin təmiri...

***Seyid Camal Əzimbəyli:*** *"Mehriban xanımın humanist xarakterli bu addımları Azərbaycanda birlik və bərabərliyi daha da gücləndirəcək"*



**Məlum olduğu kimi, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə ölkənin eks-prezidenti mərhum Əbülfəz Elçibəyin evi təmir olunub.**

Elçibəyin oğlu Ərturqut Əliyev bununla əlaqədar Mehriban Əliyevaya təşəkkür edib: "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təşəkkürümüzü bildirirəm. Bizim yaşadığımız evin təmiri ilə bağlı müraciət öz həllini tapdı və yaxın günlərdə təmir olunan evimizə yerləşəcəyik".

Qeyd edək ki, Ə.Elçibəyin həyat yoldaşı Həlimə Əliyeva vəfatından bir qədər əvvəl Birinci vitse-prezident Mehriban Əliyevaya Binəqədi rayonu, Rəsulzadə qəsəbəsində yerləşən evlərinin təmiri ilə bağlı müraciət ünvanlayıb. M.Əliyevanın tapşırığına əsasən, Heydər Əliyev Fondu tərəfindən evdə yenidənqurma və təmir işləri həyata keçirilib. İkimərtəbə və mansarddan ibarət yaşayış evində, həmçinin, kanalizasiya, işıq və su sistemi tamamilə yenilənib. Yaşayış evinin yerləşdiyi həyətyanı sahə abadlaşdırılıb. Heydər Əliyev Fondu yayılan məlumatı təsdiqləyərək artıq təmir işlərinin başa çatdığını qeyd edib.

Artıq neçənci dəfədir Mehriban xanım bu kimi humanist xarakterli işlər görür. Birinci vitse-prezidentin gördüyü xeyriyyə işləri cəmiyyətdə həmrəyliyi daha da gücləndirir. Eyni zamanda, bu, vətəndaşları toparlayır. Siyasi görüşlərindən asılı olmayaraq, bunu bütün insanlar təqdir edirlər. Bir sözlə, bu yöndə görülən işlər toplumda həmrəyliyə xidmət edir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, Mehriban xanımın bu yöndə gördüyü işlər humanizmə, həmrəyliyə xidmət edir: "Ona görə də bu istiqamətdə atılan addımları çox yüksək dəyərləndirirəm. Qarabağ Seyid Ocaqları adından və yüz minlərlə peyğəmbər, Əhlibeyt sevənlər adından deyirəm ki, bu çox təqdirəlayiq haldır. Gündə onlarla şəhid və qazi ailələri ilə bir arada olan şəxs olaraq bunu deyirəm. Cəmiyyətdə Mehriban xanımın gördüyü işlər birmənalı olaraq təqdir olunur. Çünki bu, mərhəmətin, şəfqətin, rəhmətin aynasıdır. Düşünürəm ki, görülən bu iş ölkəmizdə vəhdətin gözəl bir nümunəsidir. Mehriban xanımın humanist xarakterli bu addımları Azərbaycanda birlik və bərabərliyi daha da gücləndirəcək. Hesab edirəm ki, eks-prezident Əbülfəz Elçibəyin evinin təmir olunması toplumda vətəndaş həmrəyliyinin daha geniş müstəvini əhatə etməsinə gətirib çıxaracaq. Ona görə də bütün bunlar dövlətimizin və xalqımızın mənafeyinə xidmət edir".

***Vidadi ORDAHALLI***

# "Sıfır güclərin" hansı sayda birləşməsi ilə güc yaranmaz - Aydın Quliyev Arif Hacılının çağırışına cavab verdi

*"İctimaiyyətin geniş dəstəyindən məhrum olan heç bir siyasi çağırış uğur qazanmaq şansına malik deyil"*

**Sosial bazası və təşkilat-kadr potensialı mövcud siyasi vəziyyətə hissolunan dərəcədə təsir göstərmək gücü olmayan radikal müxalifət dairələrinin birləşmək çağırışları indiyə qədər ardıcıl iflasa uğramış aksiyalar kimi cəmiyyət arasında qeyri-ciddi qarşılanır və ictimai rəydə heç bir təsir gücünə malik deyil.**



Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev "Müsavat" Partiyasının sədri Arıf Hacılının bir qrup radikal müxalifətçini dəyirmi masaya dəvəti ilə bağlı məsələyə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, həmin şəxslərin hər biri ayrılıqda siyasi perspektivini tam itirmiş və özlərini gurultulu şəkildə partiya, şura, hərəkat və sair rəhbəri adlandıran bu subyektlər mücərrəd birləşmə çağırışları edəndə cəmiyyət ilk növbədə onların uğursuz keçmişinə qayıdır, xalqa fayda verməkdən daha çox bir-birinə qarşı tutarlı kompromat və intriqa mübarizələri apardıqlarını yada salır, onların niyə belə dağınıq və gücsüz vəziyyətə düşdükləri barədə suallar verir: "Xalq bilir ki, bu adamlar özlərini hakimiyyətdə və dövlət vəzifələrində yarıtmaz aparıb, onlara göstərilmiş etimada məsuliyyətsiz yanaşıb və öz şəxsi ambisiyalarının təntənəsinə daha çox çalışıblar. Əsasən, bir illik dağıdıcı və istedadsız AXC hakimiyyətinin uğursuz kadrlarından və bir vaxtlar indiki hakimiyyətin sıralarından korrupsiya və digər neqativ hallara görə çıxdaş edilmiş şəxslərdən ibarət olan bu toplum sadəcə qisasalma niyyətlərindən başqa heç nəyə qadir deyillər. Bunun üçün isə onların yetəri qədər potensial və gücləri yoxdur. Bu şəxsləri cəmiyyət yaxşı tanıdığı üçün onların çağırış və hərəkətlərinin cəmiyyətdə hər hansı kütləvi dəstək qazanması mümkünsüzdür. Ayrı-ayrılıqda siyasi güc olmaq göstəricilərindən məhrum olan bu "ekslər"in birləşəndən sonra da gücə çevrilə bilməkləri mümkünsüzdür.

Sadə bir səbəb var: cəmiyyət bu insanların uğursuz hakimiyyət və vəzifə sahibləri olduqlarını yaxşı bilir. İnsanlara sirr deyil ki, düçar olduqları vəziyyətdən çıxmaq üçün bir-birinə yaxınlaşmaq istəyən radikal rəhbərlər əslində bir-birinə düşmən kimi baxan barışmaz ambisiozlardan başqa kimsə deyillər. Xalq bu adamların o qədər saysız formatlarda birləşərək sonradan bir-birinin üstünə yeridiklərini görüb ki, daha onlara inana bilməz. Birləşməyə cəhd edənlərin əsas hədəfi ölkədə sabitliyi pozmaq, vətəndaş itaətsizliyi yaratmaq və 80-ci illərin sonlarında olduğu kimi xalqın onlara qoşulmayan hissəsini qorxutmaq, hakimiyyəti güc yolu ilə ələ keçirməkdir. Xalq belə planları və onun acı nəticələrini artıq gördüyü üçün indiki sabitliyin altetnativinin olmadığına əmindir".

Ekspert bildirir ki, ölkədə guya siyasi durumu dəyərləndirmək adı altında toplanış səylərinin əsl hədəfinin nədən ibarət olduğu aydındır: "İndiyədək ölkədə ancaq sabitliyi pozmaq, itaətsizlik, xaos və qarşıdurma mühiti yaratmağa cəhdlər göstərmiş siyasi dairələrin niyyəti pozitiv ola bilməz. Cəmiyyət onu da yaxşı bilir ki, bu subyektlər indiyə qədər də şura, konqres, hərəkat, alyans, xalq qurultayı və sair kimi parlaq adlar altında xalqın diqqətini çəkməyə çox cəhdlər göstəriblər, hamısı da eyni səbəbdən iflasa uğrayıb. Çünki bu birliklər səmimi deyil, xalqın siyasi zövqünə cavab verə bilməyib, indiki hakim sosial-siyasi kursa, Qarabağ probleminin həlli perspektivinə real alternativ təklif verə bilməyiblər.

İctimaiyyətin geniş dəstəyindən məhrum olan heç bir siyasi çağırış uğur qazanmaq şansına malik deyil. Bu mənada, hazırda birləşmə çağırışı içində olanların arasında xalqın birmənalı yanaşdığı xarizmatik lider şəxsiyyətinin olmaması da bu prosesin iflasa uğrayacağını öncədən həll edən faktordur. Məşhur riyazi formulla daha konkret desək, başlığında "1" rəqəmi olmayan "sıfır güc" subyektlərinin hansı sayda birləşməsindən asılı olmayaraq, nəticə dəyişməz və gücə çevrilə bilməz.

# İsrail Bakıdakı Səfirliyinin fəaliyyətini niyə dayandırdı...

**İsrailin Azərbaycandakı Səfirliyi fəaliyyətini müvəqqəti dayandırıb. Bu barədə İsrailin Azərbaycandakı Səfirliyi məlumat yayıb. Səfirliyin fəaliyyətini dayandırmasının səbəbi maliyyə problemi ilə əlaqədardır: "İsrail Maliyyə Nazirliyinin 2019-cu il iyulun 21-də baş direktor tərəfindən imzalanmış razılaşmaları pozmaq və son onilliklər ərzində qüvvədə olan protokolun ziyanına olmaqla birtərəfli proseduru işə salmaq qərarına əsasən, diplomatik nümayəndəliyi bağlamaq məcburiyyətində qalırıq".**



Qeyd olunub ki, səfirlik konsul xidmətləri göstərməyəcək, ziyarətlər üçün bağlanacaq: "İsrail diplomatları hər zaman ölkənin gücünü və dayanıqlığını artırmaq üçün səy göstərməyə çalışıblar. Təəssüf ki, Maliyyə Nazirliyinin qərarı bizə başqa bir seçim qoymur. Ümid edirik ki, bu böhran ən qısa zamanda həll ediləcək".

Azərbaycanın çox yaxın strateji tərəfdaşı olan İsrail Azərbaycandakı Səfirliyini bağlamasının səbəbini maliyyə problemi ilə izah edir. İsrail kimi zəngin bir ölkənin onun üçün olduqca əhəmiyyətli sayılan bir ölkədə diplomatik missiyasına son verməsini maliyyə çətinliyi ilə əsaslandırması inandırıcı görünmür. Maraqlıdır ki, konsulluq fəaliyyətinə də son veriləcəyi bildirilir. İsraillə Azərbaycanı çox sıx tellər bağlayır. Həmin ölkədə çoxlu sayda Azərbaycanda doğulub, boya-başa çatan yəhudilər yaşayır və onlar özlərini Azərbaycan diasporunun bir parçası sayırlar. Bu vəziyyət onlarla əlaqələrin qurulmasına da mənfi təsirini göstərəcək. İsrailin belə addım atmağının gercək səbəbi nə ilə bağlıdır? Bu sualla sosial şəbəkə istifadəçilərinə müraciət etdik və maraqlı cavablar aldıq.

Jurnalist Günay Arda bu suala yazdığı şərhdə bildirib ki, hadisə bizim ölkəmizlə bağlı deyil: "Maliyyə tərəfi də təbii ki, inandırıcı deyil. İsrail dövlətinin daxilində böhran yaşanır. Kənar təsirlərdən mühafizə üçün tədbirdir".

Politoloq Məhəmməd Əsədullazadənin isə məsələyə mövqeyi belə olub: "69 səfirlik, 23 konsulluq, 5 xüsusi nümayəndəlik qeyri-müəyyən müddətə bağlanıb. Xüsusilə İsrailin Terrorla Mübarizə Şöbəsi Türkiyə, Gürcüstan və Azərbaycanı terror risqli ölkələr siyahısına salıb. Və bu üç ölkədə səfirliyi bağlayıb. Hazırda İsraildə hökumət böhranı var. Maliyyə məsələlərində də problemlər var. Diplomatlar maliyyə azlığını səbəb gətirirlər. Belə hallar olub. Səfirliklərin işini dayandırmasında terror risqləri də var. İsrail məxfi əməliyyatlar keçirir. Ona görə də çalışır ki, təhlükəsizlik səbəblərini üst səviyyədə saxlasın".

Jurnalist Elgün Mənsimov da hesab edir ki, fəaliyyət müvəqqəti dayandırılıb: "Bunun Azərbaycan-İsrail münasibətləri ilə heç bir əlaqəsi yoxdur. Güman ki, yaxında bərpa ediləcək. Həm də təkcə Azərbaycanda bağlanmayıb ki. İsrailin bütün ölkələrdəki səfirlikləri müvəqqəti olaraq fəaliyyətini dayandırıb. Bu da İsrailin Xarici İşlər Nazirliyi ilə Maliyyə Nazirliyi arasındakı qarşıdurmanın səbəb olduğu tətillə əlaqədardır".

Fəal "Facebook" istifadəçisi Elçin Əfəndinin isə məsələyə mövqeyi aşağıdakı şəkildə olub: "Bu təkcə bizim ölkə ilə bağlı deyil. İsrail dünyanın 69 ölkəsində olan səfirini və konsulluğunu geri çağırıb. Yeni Baş nazir köhnəni korrupsiya faktında günahlandırır. Netanyahu ilə bağlı araşdırmalar burada əsasdır. Maliyyə məsələsi ilə bağlı sıxıntı var. Bu, inandırıcı görünmür, amma korrupsiya faktına görə səfirlərin geri çağırılıb yoxlama aparılması və s. kimi məsələləri düşünəndə həqiqətə yaxınlıq hiss olunur. Bütün bunları bildikdə isə bu prosesin bizim ölkə ilə bağlılığı olmadığı faktı gün kimi aydın olur".

Politoloq Qabil Hüseynli isə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İsrailin izahını səmimi qəbul etmir: "Ola bilər ki, bir neçə ölkə ilə bağlı belə bir qərar qəbul olunub. Ancaq bizi maraqlandıran Azərbaycandır. Bilirik ki, İsrail üçün Azərbaycanın önəmi ABŞ-dan da böyükdür. Zəngin bir ölkənin maliyyə probleminə görə belə addım atması inandırıcı deyil. Bu o anlama gəlir ki, İsrail Azərbaycanla fərqli müstəvidə davrana bilər. Türkiyəyə qarşı edilən hərəkətlərin bizə tətbiq olunması mümkündür. Düzdür, bunu bir qədər üstüörtülü formada etməyə başlayıblar. Səfirliyin bağlanmasını İsrailin siyasi kursunun dəyişməsi kimi anlaya bilərik. Bundan təəssüflənirəm və İsrailin bu siyasətini pisləyirəm".

***Məhəmmədəli QƏRİBLİ***

# BŞBPİ radikalların polisə qarşı daha bir ağlasığmaz iftirasına cavab verdi

*"Polis tərəfindən cinsi azlıqların aksiyalara cəlb edilməsi barədə məlumatlar cəfəngiyyatdır"*



**Sosial şəbəkələrdə cinsi azlıqların nümayəndələrinin paytaxtın müxtlif polis bölmələrinə qeyri-formal görüşə çağırılmaqla aksiyalarda iştirak etmələri ilə bağlı yayılan iddialar cəfəngiyyatdır.**

Bu barədə Bakı Şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib.

Onun sözlərinə görə, polis paytaxtda ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında qanunla səlahiyyət verilməyən heç kimin köməyinə ehtiyac duymur: "Dəfələrlə vətəndaşların müxtəlif məzmunlu, çoxsaylı müraciətləri əsasında cinsi azlıqların profilaktikası tədbirləri çərçivəsində onlar polis orqanlarına dəvət olunaraq, izahedici söhbətlər aparılıb. Həmin söhbətlərdə onların diqqətinə çatdırılıb ki, paytaxtın müxtəlif yerlərində toplanması sakinlərin narahatlığına səbəb olur. Görünür ki, bu söhbətlərin məzmunu bilərəkdən, məqsədli olaraq cəmiyyətə başqa formada çatdırılır".

E.Hacıyev vurğulayıb ki, ölkə qanunlarından irəli gələrək ayrı-ayrı vətəndaşların hər birinin hüquq və azadlıqlarının təminatında polis üzərinə düşən vəzifələri həyata keçirir: "Kimlərinsə sifarişlərini yerinə yetirən şəxslərin polis haqqında uydurmaları cəmiyyətlə polis arasında süni qarşıdurma yaratmağa yönələn növbəti uğursuz cəhddir".

# "Milli Şura" 2 noyabr mitinqini təxirə salmaqla bağlı çağırış etdi, müsavatçılardan da dəstək aldı





**"Milli Şura"nın sədri Cəmil Həsənli müxalifətin 2 noyabra təyin etdiyi mitinqin təxirə salınmasını təklif edib.**

"Trend"in məlumatına görə, bu barədə Cəmil Həsənli öz "facebook" səhifəsində paylaşım edib.

Paylaşımda deyilir: "Təklif edirəm ki, MŞ KM üzvləri və AXCP rəhbərliyi mənim bu təklifimi təcili müzakirə etsin. 2 noyabr mitinqini təxirə salaq, hərəkatımızın yeni dalğası hələ indi başlayır, əhalinin qorxudulmasına bəhanə verməyək".

Müsavatçılar "Milli Şura"nın (MŞ) sədri Cəmil Həsənlinin MŞ-nın noyabrın 2-nə təyin etdiyi razılaşdırılmamış aksiyanın təxirə salınması barədə təklifini dəstəkləyirlər. "Trend"in məlumatına görə, Müsavat Partiyası sədrliyinə keçmiş namizəd Yadigar Sadıqlı razılaşdırılmamış aksiyanın təxirə salınmasını doğru addım kimi dəyərləndirib.

Y.Sadıqlı qeyd edib: "Cəmil Həsənli 2 noyabr mitinqini təxirə salmağı təklif edib. Zənnimcə, doğru addımdır. Ümumiyyətlə, mitinqin belə erkən vaxta təyin olunması tələsik və o qədər də uğurlu olmayan addım idi".

Xatırladaq ki, Bakı Şəhər İcra Hakimiyyətində (BŞİH) Milli Şuranın mitinqə bağlı müraciətinə baxılıb və mitinqin noyabrın 2-si, saat 15:00-dan 17:00-dək Lökbatan qəsəbəsi, 28 May küçəsi, "Neftçi" idman klubunun Qaradağ təlim-idman bazasında keçirilməsinə razılıq verilib.

Lakin AXCP sədri Əli Kərimli aksiyanın razılaşdırılmamış şəkildə Nəsimi rayonu, metronun "28 May" stansiyasının yaxınlığında keçiriləcəyini bildirib. DİN və Baş Prokurorluq 2 noyabr mitinqinin təşkilatçılarına xəbərdarlıq edib.

# Radikallar ölkədə sabitliyi tək-tək pozmaqdan birləşərək pozmaq taktikasına keçir...

**Elşən Həsənov:** *"Görürlər ki, biri 5-10 nəfər çıxarıb meydanda səs-küy edir, adı gündəmdə olur, fikirləşirlər biz niyə etməyək?"*

**Müsavat başqanı Arif Hacılı özünün "Facebook" səhifəsində müxalifətin yeni birlik modelini təqdim edib. Arif Hacılı sosial şəbəkədə yazıb ki, müxalifətin birliyi mövzusu yenidən aktuallaşıb və partiya rəhbərlərindən, o cümlədən, ondan siyasi qüvvələrin əməkdaşlığı tələb edilir.**

Arif Hacılı sonra qeyd edib: "Bu təklifləri, eyni zamanda, siyasi resursların toparlanması zərurətini nəzərə alaraq, ölkədə yaranmış siyasi durumu dəyərləndirmək, yaranmış vəziyyətdən çıxış yolları barədə müzakirə aparmaq üçün Əli İnsanov, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, Əli Kərimli, İlqar Məmmədov, Pənah Hüseyn, Mehman Əliyev, Hikmət Hacızadə və siyasi təşkilat rəhbərlərinin razılaşacağı digər siyasi xadimlərin iştirakı ilə açıq Dəyirmi masanın keçirilməsini təklif edirəm".

Müsavat başqanının siyahının başında Əli İnsanovun adını yazması maraqla qarşılanıb və sosial şəbəkədə ciddi müzakirələrə yol açıb. Adı korrupsiyada hallanan və hakimiyyətdə olduğu dönəmdə müxalifətə qarşı sərtliyi ilə seçilən sabiq səhiyyə nazirinin yeni qüvvə kimi təqdim edilməsi birmənalı qarşılanmayıb. Onu da vurğulayaq ki, Arif Hacılının yeni birlik formulu kimi təqdim etdiyi siyasətçilər artıq uzun illər boyunca siyasi müstəvidə olan və təqaüd yaşı çatmış insanlardır. İqtidar öz dəhlizlərindən yaşı ötmüş insanlarla vidalaşırsa, müxalifət yenidən köhnə siyasətçiləri diriltməyə çalışır. Adları siyahıda yazılan adamlar indiyə kimi hansı uğura imza atıblar ki, onların bir yerə toplanması nəsə nəticə vermiş olsun? Maraqlıdır, belə birlik modeli mümkündürmü, baş tutarsa, ondan hansı nəticəni gözləməyə dəyər?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov qəzetimizə bildirdi ki, belə bir çağırışın olmasından xəbərdardır: "Bu insanlar sanki özlərinə başqa peşə tapa bilmirlər. Siyasəti lap evcik-evcik oyununa döndəriblər. Arif Hacılıya sual vermək lazımdır ki, indiyə qədər müxalifətin nə qədər birlik modelləri olub və hansı nəticəni verib? Özləri bunun nəticəsiz olacağını gözəl anlayırlar. Digər tərəfdən, Arif Hacılının siyahısında elə adamların adı var ki, onlar nə bir yerdə nəisə müzakirə etməyə razı olar, heç çay da içməzlər.




Müxalifətin bir qanadı mitinq edir, onlara qoşulmaq istəyən digər müxalif qüvvələri yaxın buraxmır ki, "dividendi" özü götürsün. Bunlardan hansı səmimiyyəti gözləməyə dəyər? Bu yaxınlarda fəaliyyət göstərən bir blokda biz də təmsil olunduq. Adı da Azərbaycan Xalq Hərəkatı idi. Qısa zaman ərzində həmin qurum az qala 10 yerə parçalandı. Orada təmsil olunanlar bir-birinin ünvanına nələr demədilər? Bu siyahıda adları keçən adamlardan da bəziləri orada vardı. Bu cür insanlar siyasətdən kənara çəkilsə yaxşı olar. Bilirsiniz niyə ruhlanırlar? Görürlər ki, biri 5-10 nəfər çıxarıb meydanda səs-küy edir, adı gündəmdə olur, fikirləşirlər biz niyə etməyək? Fikir verin, həmin siyahıda Arif Hacılı Əli İnsanovun adını başda birinci yazıb. Əli İnsanov bunlara nə ideya verə bilər ki? Sadəcə, gücündən, maddi imkanından yararlanmaq istəyirlər ki, 5-10 manat irəli düşsünlər".

***Məhəmmədəli QƏRİBLİ***

# DİN və Baş Prokurorluğun xəbərdarlığından sonra radikalların Bakıda qanunsuz aksiya cəhdinə görə kim məsuliyyət daşıyacaq...

**Vüqar Rəhimzadə:** *"Buna görə bütün məsuliyyət qanunsuz aksiya keçirənlərin üzərinə düşəcək"*

**"Milli Şura"nın noyabrın 2-nə təyin etdiyi mitinq müzakirə mövzusudur. 19 oktyabrda olduğu kimi, 2 noyabrda da radikallar müəyyən edilmiş yerdə deyil, icazəsiz olaraq şəhərin mərkəzində aksiya keçirmək istəyirlər.**



Bu arada Daxili İşlər Nazirliyi və Baş Prokurorluq müxalifətin təyin etdiyi mitinqlə bağlı birgə məlumat yayıb. Məlumatda qeyd edilir ki, radikallar yenidən icazəsiz aksiya keçirmək istəyirlər. "Son günlər Əli Kərimli və Azərbaycan Xalq Cəbhəsi Partiyasının rəhbərliyində təmsil olunan digər şəxslər tərəfindən müxtəlif kanallar vasitəsilə noyabrın 2-də Bakı metropoliteninin "28 May" stansiyasının önündə qanunsuz aksiya keçirilməsinə yenidən çağırışlar edilir. Qeyd olunmalıdır ki, "Milli Şura" adlandırılan qurumun noyabrın 2-də mitinq keçirmək barədə müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən baxılaraq "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndinə əsasən, metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsinin qadağan edilməsi nəzərə alınmaqla, mitinq üçün "Neftçi" idman klubunun Lökbatan qəsəbəsindəki təlim-idman bazası təklif edilmiş, lakin təşkilatçılar həmin tarixdə yenə də metropolitenin qarşısında razılaşdırılmamış qanunsuz aksiya keçirəcəkləri barədə məlumatlar paylaşmışlar".

Daha sonra deyilir: "Onlara bir daha xəbərdarlıq edilir ki, Bakı Şəhər İcra Hakimiyyətinin təklif etdiyi yerdən kənarda toplantı təşkil edilləcəyi, ictimai qaydanı, o cümlədən, hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmamaqda ifadə olunan, əhalinin dinc həyatını, rahatlığını, nəqliyyatın, müəssisə, idarə və təşkilatların normal fəaliyyətini pozan qanunsuz hərəkətlərə yol veriləcəyi təqdirdə bütün məsuliyyət üzərlərinə düşəcək".

Görünən odur ki, radikal müxalifət icazə verilməyən yerdə qanunsuz aksiya keçirməkdə qərarlıdır.

Müvafiq qurumlar da buna yol verilməyəcəyini bəyan edirlər. Belə olan halda, qanunsuz aksiya cəhdinə, orada baş verən hər hansı hadisəyə görə kim məsuliyyət daşıyacaq?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru

## "Hesab edirəm ki, onların bu təxribatına yol verilməyəcək"

Vüqar Rəhimzadənin sözlərinə görə, buna görə bütün məsuliyyət qanunsuz aksiya keçirənlərin üzərinə düşəcək: "Təbii ki, qanunsuz aksiya keçirmək istəyənlər baş verən hər hansı hadisəyə görə məsuliyyət daşıyacaqlar. Bununla bağlı yaranan istənilən situasiyaya görə onlar cavab verməli olacaqlar. Dövlət qurumları mitinqin keçirilməsi üçün uyğun ərazi ayırırsa, radikal müxalifət bundan imtina edib mərkəzdə qanunsuz aksiya keçirmək istəyirsə, o zaman istənilən hadisəyə görə məsuliyyət onların üzərinə düşür. Bütün bunlar onu göstərir ki, müxalifətin sosial bazası yoxdur.

**Onların məqsədi aksiya keçirmək yox, nümayişkaranə şəkildə təxribat törətməkdir. Bunun üçün çalışırlar. İstəyirlər ki, ölkədəki ictimai-siyasi sabitlik pozulsun. Ona görə də şəhərin ən gur yerində insanların rahatlığını pozmaq istəyirlər. Hesab edirəm ki, onların bu təxribatına yol verilməyəcək".**

***Vidadi ORDAHALLI***

# Şoyqudan İlham Əliyevin faşist caniləri qəhrəmanlaşdıranlar barədə bəyanatına dəstək...

**Rusiyanın Müdafiə naziri Sergey Şoyqu MDB ölkələrindən olan həmkarlarını keçmiş SSRİ xalqlarının ümumi hərbi tarixini təzədən yazmağa, Böyük Vətən Müharibəsi hadisələrini təhrif etməyə çalışanlara qarşı durmağa çağırıb: "Əlbəttə, bu tarixi təzədən yazmaq, xüsusilə qalibləri məğlub, məğlubları isə qalib etmək üzrə istənilən cəhdlərə qarşı durmaq üçün əlimizdən gələni etmək lazımdır".**



## *Zamin Axundov: "Ya Ermənistan rəhbərliyi faşistdən imtina addımı atmalı, ya da faşist mahiyyətli ölkə olduğunu rəsmən etiraf etməlidir"*

Nazir qeyd edib ki, bu "ölkəmiz üçün böyük, ağır müharibə dövründə törədilən cinayətlərə də aiddir". "Bu gün bir tərəfdən tarixi yenidən yazmaq istəyən, digər tərəfdən isə qaliblərin heç bir vəchlə qəhrəman olmalarını istəməyən şəxslərin sayı artır", - Şoyqu qeyd edib.

RF-nin Müdafiə naziri bildirib ki, bu cür saxtalaşdırmalara qarşı durmaq lazımdır. Rusiya tərəfindən Böyük Qələbənin 75 illiyi münasibətilə bayram tədbirlərində iştirak məqsədilə MDB ölkələrinin müdafiə nazirlərinin ünvanına dəvətlər təqdim olunub. Şoyqu "əvvəlki kimi, bu tədbirdə azərbaycanlı hərbi qulluqçuların da fəal iştirak edəcəyinə" ümidvar olduğunu bildirib.

Qeyd edək ki, MDB ölkələrinin Aşqabad zirvəsində İlham Əliyev Ermənistanı faşizmi dəstəkləməkdə günahlandırıb. Konkret faktlara əsaslanaraq bildirib ki, Ermənistan faşizmi dəstəkləyən canilərə heykəl ucaldır.

İlham Əliyev Bakıda nümayəndə heyətini qəbul edərkən yenidən bu məsələyə toxunub və bildirib ki, Aşqabadda Ermənistanın faşizmi dəstəklədiyinə dair konkret faktlar təqdim etsə də, hələ də Qaregin Njdeyə qoyulan abidə götürülməyib. Faktiki olaraq, Rusiya Müdafiə naziri də son bəyanatı ilə İlham Əliyevə dəstək verib.

Politoloq Zamin Axundov qəzetimizə bildirdi ki, Şoyqunun məlum bəynatı ilə İlham Əliyevin səsləndirdiyi fikirlər arasında sıx əlaqə var: " Şoyqunun "məğlubları isə qalib etmək üzrə istənilən cəhdlərə qarşı durmaq üçün əlimizdən gələni etmək lazımdır" fikrində bu detal izah olunur. Məğlubları qalib edən Ermənistandır. Onlar faşizmin tərəfində döyüşən Njdeyə heykəl ucaldır və bununla da həm tarixi saxtalaşdırır, həm də müharibədə məğlub olanların adını əbədiləşdirirlər. Bu fakt Şoyqunun fikirlərinə tam cavabdır. MDB ölkələri arasında Ermənistandan başqa, faşizmə dəstək verən ikinci dövlət yoxdur. Yaxşı olardı ki, Şoyqu və Böyük Vətən Müharibəsində əməyi olan digər MDB ölkələri Ermənistandan konkret izahat istəsinlər. Qəti şəkildə həmin heykəlin sökülməsini tələb etsinlər. Yəni bəyanatla kifayətlənmək olmaz. Ermənistanın qarşısında bu fakt konkret qoyulmalıdır. Ermənistan bu məsələdə də ikibaşlı oyun oynayır. Həm MDB ölkəsi kimi, faşizm üzərində qələbəni alqışlayır, həm də Njdeyə heykəl ucaldır, onu öz dövlətinin ideoloqu kimi təqdim edir. İlham Əliyev bu faktın üzərinə bir daha gəlib və Ermənistanda faşist cəllad Ter-Arutyunyanın qəhrəman səviyyəsinə qaldırıldığını vurğulayıb. Bu gün Ermənistanda meydanlara, küçələrə onun adı verilib. Bir neçə il bundan əvvəl isə Ermənistan paytaxtının mərkəzində ona təqribən 6 metr hündürlüyündə heykəl qoyulub. Ya Ermənistan rəhbərliyi faşistdən imtina addımı atmalı, ya da faşist mahiyyətli ölkə olduğunu rəsmən etiraf etməlidir. Bunun başqa yolu yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın iqtisadi strategiyası türk dövlətlərinin inteqrasiyasını sürətləndirir

**Bu gün Azərbaycanın xüsusi maraq dairəsində yer alan məsələlərdən biri də türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni və digər istiqamətlərdə münasibətlərin daha da möhkəmlənməsidir. Bu xüsusda rəsmi Bakı indiyə qədər çoxsaylı təşəbbüslərdə bulunub, eyni zamanda görünən həm də budur ki, Azərbaycanın yaratdığı müasir infrastruktur türk dünyası arasında iqtisadi inteqrasiyanın dərinləşməsi üçün əlavə imkanlar yaradır.**




Məsələn, əsrin ən uğurlu layihələrindən biri sayılan Bakı-Tiflis-Qars dəmir yolu xəttini buna əyani misal kimi göstərmək olar.

Məhz bu dəmir yolu Orta Asiyada yerləşən türk ölkələrinin elə türk dünyası vasitəsilə dünya bazarlarına çıxması üçün əlverişi bir şərait yaradır. Bakı türk ölkələrini hər zaman bu xətdən istifadəyə dəvət edib. Elə ötən il Prezident İlham Əliyev Qırğız Respublikasının Çolpon-Ata şəhərində baş tutan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşündə bu xüsusda müvafiq çağırış edib: "Bütün dost ölkələri Bakı-Tiflis-Qars dəmir yolundan istifadə etməyə çağırıram". Hazırda Orta Asiya ölkələrindən Qazaxıstan və Türkmənistanın məhsullarının bir hissəsi Bakı-Tiflis-Qarsla daşınır. İndi Azərbaycan Özbəkistanı da buna cəlb etmək niyyətindədir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan dəmir yolunun imkanları Özbəkistanın paytaxtı Daşkənddə keçirilən "Breakbulk Caspian-2019" adlı konfransda təqdim edilib. Tədbirdə iştirak edən ölkəmizin "ADY Express" MMC-nin nümayəndələri tərəfindən müxtəlif növ yüklərin Özbəkistan və Mərkəzi Asiya ölkələrindən "Şərq-Qərb" istiqamətində nəqli məsələləri təqdim olunub. "Azərbaycan Dəmir Yolları" QSC-nin, Bakı-Tiflis-Qars dəmir yolu kimi iri infrastruktur layihələrinin imkanlarını konfrans iştirakçılarının diqqətinə çatdıran şirkət nümayəndələri Qrb istiqamətində bu növ yüklərin daşınmasında Azərbaycan ərazisindən keçən tranzit marşrutlarının üstünlüklərini nümayiş etdiriblər. Bildirilib ki, Bakı-Tiflis-Qars dəmir yolunun və digər mühüm infrastruktur layihələrinin imkanları Azərbaycanın tranzit potensialını artırır. Azərbaycan ərazisindən keçən dəmir yolu marşrutları daha tez və əlverişli şərtlərlə yüklərin ünvana çatdırılmasına imkan yaradır. Yüklərin həm Türkiyəyə, həm də Türkiyənin Aralıq dənizindəki limanlar vasitəsilə digər ölkələrə daşınması variantlarını təklif edən "ADY Express" şirkəti iri yük sahiblərinə yeni logistik məhsul nümayiş etdirib.

Qeyd edək ki, əslində, Özbəkistan və Mərkəzi Asiya regionunun digər ölkələri də Bakı-Tiflis-Qarsa xüsusi maraq göstərir. Hətta Özbəkistanın infrastrukturunun təkmilləşdirilməsi və 2018-2022-ci illərdə yükdaşımaların xarici ticarət marşrutlarının şaxələndirilməsinə dair kompleks proqramda bu dəmir yolundan geniş şəkildə istifadə nəzərdə tutulub. Bu ölkə Nəvai-Türkmənbaşı-Bakı-Tiflis-Qars dəmir yolu nəqliyyat dəhlizinin istifadə edilməsində maraqlıdır. Həmin dəhliz Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan dəmir yollarını Türkiyənin nəqliyyat şəbəkəsi ilə birləşdirəcək. Bakı-Tiflis-Qars bununla Türkiyənin Mərsin limanı vasitəsilə Özbəkistanın Aralıq dənizinə çıxışını təmin edəcək.

Digər tərəfdən Özbəkistan nəzərə alır ki, sözügedən dəmir yolu Çinin elan etdiyi, Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin dəstəklədiyi "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Xatırladaq ki, bu strategiya iki mühüm inkişaf istiqamətini əhatə edir: 60-dan çox ölkəni əhatə edən İpək Yolu iqtisadi kəməri və Dəniz İpək Yolu. İpək Yolunun uzunluğu 18 min kilometrdir. Söhbət Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa malgöndərmələr üçün ticarət dəhlizi yaradılmasından gedir. Bakı-Tiflis-Qars dəmir yolunu İpək Yolu iqtisadi kəmərinin tərkib hissəsi kimi nəzərdən keçirsək, onun başlıca vəzifəsi Çindən və Cənub-Şərqi Asiyanın digər ölkələrindən Avropaya yüklərin daşınmasıdır. Beləliklə də bu dəmir yolu qitələrarası daşımalar üçün böyük imkanlar yaradır. Ümumiyyətlə, bu dəmir yolu Mərkəzi Asiya ölkələrinin hamısının, yəni Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa, digər dünya bazarlarına çıxışını asanlaşdırır. Məhz bu hal özbək tərəfinin də xüsusi diqqətini cəlb edir.

Onu da qeyd edək ki, hazırda Bakı-Tiflis-Qarsla hər həftə Türkiyə, Azərbaycan və Qazaxıstan arasında 3 reys yerinə yetirilir. Əsasən inşaat materialları, elektrik avadanlıqları, yuyucu vasitələr, taxıl, jmıx və digər məhsullar daşınır. Bakı-Tiflis-Qarsla Rusiyadan Türkiyəyə taxıl daşınır. Bu günlərdə SOCAR və "ADY Konteyner" sözügedən dəmir yolu ilə Türkmənistanın Marı zavodundan Türkiyəyə karbamid göndərilməsini təmin edib. Dəmir yolu ilə sərnişinlərin daşınması üçün də işlər görülür və bu da turizmin inkişafına yeni nəfəs gətirəcək. Hesablamalara görə, birinci mərhələdə sərnişindaşımaların həcmi ildə 1 milyon nəfər, yükdaşımaların həcmi isə ildə 5 milyon ton olacaq. İkinci mərhələdə müvafiq göstəricilər artaraq ildə 2 milyon sərnişin və 17 milyon ton yük təşkil edəcək. Təbii ki, belə vəziyyətdə Özbəkistanın kənarda qalması onun üçün məqbul hal deyil və bu səbəbdən adıçəkilən ölkə Azərbaycanla yükdaşımalar sahəsində əməkdaşlığa artıq xüsusi maraq göstərir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Abşeron Logistika Mərkəzi kimi layihələr, "Şimal-Cənub", "Şərq-Qərb" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri də Azərbaycanın bu türk ölkəsi üçün yaratdığı əlavə imkanlar sırasında yer alır. Ümumiyyətlə, proseslərin inkişafı göstərir ki, qarşıdakı dövr ərzində Özbəkistan və Orta Asiyanın digər ölkələri Azərbaycanla iqtisadi müstəvidə daha sıx əməkdaşlıq edəcək. Bu isə həm də türk dünyası arasında inteqrasiyanın güclənməsi deməkdir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Şoyqunun Bakıdan əvvəl İrəvana getməsinin sirri açıldı - Azərbaycanın Qarabağ diplomatiyasının bir üstünlüyü də göründü

**Nikol Paşinyan dönəmində Rusiya və Ermənistan arasında münasibətlərin kifayət qədər ziddiyyətli bir məcraya yönəldiyi heç kimə sirr deyil. Bu vəziyyətdə erməni tərəfini qorxudan başlıca məqam Rusiyadan olan dəstəyin dayanması, Moskvanın Bakı ilə daha çox yaxınlaşmasıdır. Aydındır ki, bu vəziyyət mütləq mənada Dağlıq Qarabağ münaqişəsinə də təsirini göstərəcək.**

Bütün bunlar fonunda Ermənistanın "168 Jam" qəzeti yazır ki, Paşinyanın fəaliyyəti fonunda İrəvan - Moskva münasibətləri əvvəlki qaydada pisləşməyə doğru gedir və bu səbəbdəndir ki, əvvəl əldə edilən razılıqların da üzərindən xətt çəkilir. Buna konkret sübut kimi Rusiya müdafiə naziri Sergey Şoyqunun İrəvan və Bakıya son səfəri göstərilir.

Qəzet yazır ki, Şoyqunun İrəvana niyə gəldiyi bəlli olub: "İş ondadır ki, Serj Sarkisyanın dönəmində Rusiya tərəfi ilə razılıq əldə olunub ki, MDB ölkələri Müdafiə Nazirləri Şurasının iclası İrəvan və Bakıda keçirilməsin. Səbəb tərəflərin bu iclaslarda rahat iştirak etməsilə bağlı idi. Bu razılaşmaya hər zaman əməl olunub və nə Bakı, nə də İrəvanda MDB Müdafiə Nazirləri Şurasının iclası keçirilib. Faktiki olaraq, bu dəfə Ermənistan hakimiyyəti bu razılaşmanı saxlaya bilmədi. Erməni tərəfinin belə vəziyyətdə iclasda iştirak etməyəcəyi aydın idi. Ona görə də erməni tərəfinin iclasda iştirak etməməsini yumşaltmaq üçün Rusiya Müdafiə naziri Şoyqu İrəvana gəldi və buradan Bakıya getdi. Amma bunlara rəğmən, diqqət çəkən odur ki, MDB ölkələri Müdafiə Nazirləri Şurasının iclası Bakıda baş tutdu. Bununla Bakı daha bir uğur qazandı". Bunlarla yanaşı, erməni tərəfini narahat edən daha bir məqam MDB ölkələri müdafiə nazirlərinin, o cümlədən Sergey Şoyqunun diqqətinə Bakıda Ermənistanın faşizm sevgisinin davam etməsinin çatdırılması oldu. Xatırladaq ki, bu məsələyə Prezident İlham Əliyev MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edərkən xüsusi toxundu: "Aşqabad Zirvə Görüşü zamanı mən belə bir məsələ də qaldırdım ki, MDB məkanında da, təəssüf ki, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi faktları var. Məhz Ermənistanda faşist cəllad Ter-Arutyunyan qəhrəman səviyyəsinə qaldırılıb. Ermənistanda meydanlara, küçələrə onun adı verilib. Bir neçə il bundan əvvəl isə Ermənistan paytaxtının mərkəzində ona təqribən 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adam deyirdi ki, "Almaniya uğrunda ölənlər Ermənistan uğrunda ölür". Bu adam SMERŞ tərəfindən tutularaq uzunmüddətli həbs cəzasına məhkum edilib və onun şərəfsiz ömrü Vladimir həbsxanasında başa çatıb. Bax, belə bir "xadim"ə heykəl qoyulub və bu heykəl indiyə qədər götürülməyib. Mən həm dövlət başçılarının, həm də Ermənistanın yeni rəhbərliyinin diqqətini bu məqama cəlb etdim ki, MDB məkanında bu, yolverilməz hərəkətdir. Ermənistanın yeni rəhbərliyi özünün faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi ilə assosiasiya edilməsinə imkan verməməlidir. Təəssüf ki, bu heykəl indiyə qədər götürülməyib və bu, erməni tərəfin səmimiyyəti barədə çox böyük suallar doğurur. Erməni tərəfi deyir ki, o da qəhrəmanların xatirəsinə ehtiram bəsləyir. Bu, nonsensdir, ona görə ki, onlar faşistlərin əlaltılarının xatirəsinə ehtiram bəsləyir, yəni, əslində, bu mənfur əməllərə qarşı mübarizədə canlarından keçmiş insanların xatirəsinin təhqir edildiyini görürük. Buna görə biz öz tərəfimizdən bundan sonra da həm Birlik ölkələrinin, həm də digər dövlətlərin ictimaiyyətinin bu məsələyə diqqətini Qələbənin 75 illiyinə hazırlıq prizmasından cəlb edəcəyik. Düşünürəm ki, biz birgə səylərimizlə bundan sonra da işimizi bu istiqamətdə davam etdirəcəyik ki, Böyük Vətən müharibəsi haqqında həqiqət bütün dünya birliyinin, xüsusən gənc nəslin diqqətinə çatdırılsın".

Erməni tərəfini narahat edən budur ki, Bakı faşizm məsələsində Ermənistanı kifayət qədər zəif yerindən tutub və onun bu məsələdə mövqeyi Rusiya tərəfindən də dəstəklənir.

Rusiyalı ekspert Yevgeni Mixaylov Prezident İlham Əliyevin bu məsələni mütəmadi qaldırmasını təbii və vacib saydığını vurğulayır. Ekspertin sözlərinə görə, Azərbaycan rəhbəri Ermənistanda faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə dair MDB ölkələrinin ümumi fikrini ifadə edir: "Məsələyə Rusiyanın daha qəti mövqe bildirməsi də lazımdır. Əlbəttə, Moskva Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı öz narazılığını bildirdi, lakin analitiklərə görə, bu reaksiya İrəvanda bu cür cəhdlərin qarşısını almaq baxımdan güclü deyil". İndi erməni tərəfini narahat edən məqamlardan biri Azərbaycanın Ermənistanın faşizm sevgisini davamlı şəkildə qabartmaq niyyətidir. Elə İlham Əliyev də yuxarıda səsləndirdiyi fikirlərdə dünya ictimaiyyətinin diqqətinin bu məsələyə cəlb edilməsi istiqamətində işlərin davam etdiriləcəyini açıqlayıb. Bu isə İrəvan üçün olduqca ağrılı bir məqamdır. Xüsusən də Böyük Vətən Müharibəsində əldə edilmiş qələbənin ildönümünün yaxınlaşdığı bir dövrdə.

Xatırladaq ki, MDB ölkələrində Böyük Vətən Müharibəsi kimi qeyd olunan tarixi hadisənin 2020-ci il mayın 9-da 75-ci ildönümüdür. Quruma üzv ölkələr həmin tarixi günə hazırlaşır. Bu fonda Hitler faşizminin əlaltısı olmuş Qareginə İrəvanda abidə qoyulması MDB-yə üzv ölkələrin xalqalarına ən azından hörmətsizlikdir. Bu məsələ Rusiya üçün də olduqca həssasdır. Elə Rusiya müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı 6-cı cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqalədə bu xüsusda deyilir: "Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanıb, qalanları barədə axtarış elan edilib". Njdenin əsas şüarı isə belə olub: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Bütün bunlar Rusiyanın erməni faşizminə münasibətini ortaya qoysa da, yuxarıda qeyd edildiyi kimi, Moskvanın indiyə qədər olaya reaksiyası heç də məqbul səviyyədə olmayıb. İndi Azərbaycanın müxtəlif tribunalarda bu məsələni qaldırması, eləcə də qaldırmaqda davam edəcəyini bəyan etməsi Ermənistan üçün ciddi bir problem və təhlükə sayılır. Bu durumda Nikol Paşinyanın faşist Njdeni ciddi-cəhdlə, tarixi təhriflərlə müdafiə etməsi Ermənistanın faşizm sevgisindən qurtulmadığını göstərir. Bu məsələnin bir daha Prezident İlham Əliyev tərəfindən MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarına, o cümlədən Şoyqunun diqqətinə çatdıırlması isə təsadüfi sayılmır. Erməni mediası yazır ki, Azərbaycan bununla sərt diplomatik zərbələr endirməkdə davam edir və həmin zərbələrin Rusiya tərəfindən də dəstəklənməsi üçün əməli addımlar atır. Faktdır ki, müasir dünya faşist ideyalarını qəbul etmir. Çünki bu ideyalar insanların təhlükəsiz yaşamasına mane olur. Məhz bu şəraitdə Azərbaycan sübut edir ki, faşizmi Ermənistan kimi ölkələr yaşadır və dünya buna qarşı əməli addımlar atmalıdır.

Ermənistanda hesab edilir ki, Rusiya bu məsələdə Azərbaycanın çağrışlarına qulaq assa, İrəvanı kifayət qədər ciddi problemlər gözləyir. Məsələ ilə bağlı erməni hüquq müdafiəçisi Artur Sakunts bildirir ki, Moskva ilə münasibətlərə bu məsələnin daxil edilməsi əlavə problemlər mənbəyi deməkdir: "Rusiya təbliğatlara qulaq versə, Ermənistana qarşı daha sərt mövqe sərgiləyəcək. Onsuz da Moskva bizi iqtisadi msüstəvidə sıxır. Bura artıq hərbi sahə də daxildir. Rusiyanın Ermənistandakı 102-ci hərbi bazasının döyüş potensialının iki dəfə artırılması məsələsi məhz bunun təsdiqidir. Mən bunu ilk növbədə Rusiya Federasiyasının, xüsusilə də Putin rejiminin hərbi mövcudluğunun möhkəmlənməsi və güclənməsi kimi qiymətləndirirəm. Bunun üçün hansı əsaslandırmaların varlığı məlum deyil. Genişlənmə fonunda hərbi qulluqçuların sayının hara qədər çata biləcəyi anlaşılan deyil. Hərbi bazanın hərbi qulluqçularının yerləşdikləri yerdə sayı 100 minə çata bilər? Hərbi bazanın genişləndirilməsi həmçinin əlavə ərazilərin təmin edilməsini nəzərdə tutur. Bu, kifayət qədər ciddi, narahatedici haldır. Hazırkı anda hərbi bazanın hərbi potensialının genişləndirilməsinin yeganə zərurətinin Rusiya Federasiyasının maraqlarından irəli gəlməsi anlaşılandır. Mən rus hərbi bazasının genişləndirilməsində Ermənistan Respublikası təhlükəsizliyinin hansısa marağından irəli gələn heç nə görmürəm. Hesab edirəm ki, hərbi bazanın gücləndirilməsinə yönəlmiş addım ilk növbədə bizə qarşı ünvanlanıb. İndi bunların ardınca Azərbaycan faşizm məsələsini qabardır və bunu, xüsusən Rusiyanın diqqətinə çatdırır. Moskvanın bu məsələ üzərində də diqqətini fokuslaması Ermənistan üçün əlavə problemlərin yaranması demək olacaq".

Bütün bu qeyd edilənlər Azərbaycanın Ermənistanı kifayət qədər məharətli gedişlərlə küncə sıxışdırmaqda olduğunu aydın surətdə təsdiqləyir. Təbii ki, belə vəziyyət Qarabağ münaqişəsinin gedişinə də təsirsiz ötüşməyəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Məlum olduğu kimi, Ana Vətən Partiyasının sədri, millət vəkili Fəzail Ağamalı bugünlərdə verdiyi müsahibələrdən birində KİVDF-nin fəaliyyətini sərt tənqid edib və əksər oxucular deputatın bir çox fikirlərini qərəzli və qeyri-obyektiv hesab edərək elə sərt tonda da cavab veriblər.**

# Fəzail Ağamalı "ictimai rəyə təsir göstərən qəzetlərin çoxu maliyyələşmədən kənarda qalıb" sözlərini necə əsaslandırdı?

*"Mənim jurnalistlər arasında olan çox səmimi dostlarım bu və digər fikirləri, faktları mənə söyləmişdilər..."*

Onun bu fikirləri cəmiyyətdə birmənalı qarşılanmayıb, sosial şəbəkələrdə bu mövzu ilə bağlı ciddi polemikalar aparılıb. Fəzail Ağamalı sonra verdiyi müsahibədə bildirib ki, onun fikirləri, nə demək istədiyi görünür yaxşı başa düşülmədiyi üçün bəzi adamların sərt reaksiyasına səbəb olub. Bu səbəbdən də Fəzail Ağamalı ilə məhz verdiyi məlum müsahibədəki bəzi fikirlərinə aydınlıq gətirməyə çalışdıq. Deputatla söhbətimizdə onun mübahisə və etiraz doğurmuş əvvəlki müsahibəsindəki məsələlərdən kənara çıxan bəzi fikirləri ixtisar etməklə müsahibəni nəzərinizə çatdırırıq:

**- Fəzail müəllim, bilirsiniz ki, KİVDF-nin tənqidi ilə bağlı səsləndirdiyiniz fikirlərə birmənalı reaksiya olmadı, hətta həmin mövqeyinizə görə Sizi çoxlu sayda tənqid edənlər də tapıldı. Sizcə niyə belə oldu?**

- Əvvəla, Sizə təşəkkür edirəm ki, fikirlərimi tam ifadə etmək üçün mənə tribuna verirsiniz. Ancaq çox xahiş edirəm ki, mənim səsləndirəcəyim fikirləri olduğu kimi, təhrif etmədən dərc edəsiniz. Qoy elə bunun özü də peşəkar media nümunəsi kimi sizinlə bağlı bir test olsun. Bizim mövzumuz mətbuatdandırsa, siz obyektivliyə tam riayət etməlisiniz.

**- Sizinlə dəfələrlə müsahibələrimiz olub, narazı qaldığınız məqamlar olubmu?**

- Xeyr, mənim sizin qəzetə böyük hörmətim var. "Bakı-Xəbər" və onun rəhbəri ilə mənim heç vaxt problemim olmayıb. Əksinə, hər zaman Aydın Quliyev barədə müsbət fikirlər səsləndirmişəm. Ancaq təəssüf edirəm ki, Aydın Quliyev mənim səsləndirdiyim fikirlərlə bağlı gözləmədiyim bir mövqe ortaya qoydu. Belə sərtlik lazım deyildi. Aydın Quliyev mənim üçün işıqlı bir jurnalist olub. Hər zaman dövlətçiliyin yanında olub. Mənim yazıma verilən cavabda şəxsimə aid detalların olması səbəbini anlamadım. Çünki mən jurnalistin ünvanladığı suala konkret cavab vermişdim. Heç kimin, hətta KİVDF sədri Vüqar Səfərlinin belə adını çəkməmişdim. Təəssüf edirəm ki, mənə qarşı yazanlardan biri də ən çox hörmət etdiyim "Səs" qəzeti və onun baş redaktoru oldu.



**- Mövqeyinizdən belə məlum oldu ki, ölkədə həyata keçirilən mətbuat siyasəti sizi qane etmir. Niyə və hansı səbəbdən?**

- Mənim fikirlərimdə belə məqam olmayıb. Heç vaxt ölkədə həyata keçirilən mətbuat siyasətinin üzərinə getməmişəm. Azərbaycan mətbuatının inkişafı göz önündədir. Çünki Prezidentin də böyük diqqət göstərdiyi bu sahə böyük inkişaf yolu keçib. Bunu necə danmaq olar? Dəyərli jurnalistlərdən xahişim budur ki, mənim dediklərimi başqa istiqamətə yozmağa çalışmasınlar.

**- Deyirsiniz ki, konkret faktlara söykənib danışıbsınız. Gəlin onlara aydınlıq gətirək. Məsələn, bildiribsiz ki, bir sıra adı olan, özü olmayan qəzetlərə KİVDF tərəfindən pullar ayrılır. Bu nə deməkdir, adı olub özü olmayan qəzetə necə pul ayrıla bilər? Bununla bağlı meyarlar müəyyənləşib, hansı qəzeetdə o parametrlərə cavab veribsə, təsnifatlandırma da o cür aparılıb. Kimsə əlinə qələm götürüb özündən belə bir siyahını istəsə də tuta bilməz. Sizin dediyiniz qəzetlərin də heç biri maliyyələşmədən kənarda qalmayıb axı...**

- Dediyimin üstündə dururam. Ola bilər ki, bu fikri bir qədər məcazi mənada işlətmişəm. Gəlin dərinə getməyək, mənim qabağımda siyahı var. Siz də dərinə getməyin, mən də.

**- Deyibsiniz ki, ictimai rəyə təsir edən qəzetlərin çoxu maliyyələşmədən kənarda qalıb. Hansı qəzetləri nəzərdə tutursunuz? Belə media nümunəsi varmı?**

- Bəli var. "Ayna" qəzeti. Məgər bu qəzetin böyük ənənələri, ictimai rəyə təsiri yox idi? Niyə çap olunmur, niyə yardımdan kənarda qalıb? Yəqin ki, KİVDF ona dəstək göstərsə həmin qəzet çapını bərpa edərdi. Özü də həmin qəzetin rus dilində nəşr edilən "Zerkalo" variantı da var ki, onun dərcinin bərpası bizə informasiya savaşında çox lazımdır. Bu işdə hesabatlılıq düzgün olmalıdır.

**- Fəzail müəllim, "Ayna", "Zerkalo" da bir vaxtlar KİVDF-dən maliyyə alırdı, özü Fonda müraciət edərək, çapını dayandırdığı üçün maliyyələşməni dayandırmağı xahiş edib, indi isə sayt kimi fəaliyyət göstərir, onların çapını KİVDF dayandırmayıb axı... Çapa başlasalar və kriteriyalara cavab versələr, onların da maliyyələşməsi məsələsinə, yəqin ki, Fondda baxılar. KİVDF dövlət qurumudur. Söhbət ciddi məbləğlərdə ayrılan puldan gedirsə, necə ola bilər ki, onun hesabatı aparılmasın və ya verilməsin?**

- Mən rəsmi yox, ictimai hesabatlılıqdan danışıram. Qoy ictimaiyyətə hesabat versinlər.

**- Bütün bunlar barədə KİVDF-nin saytında məlumat dərc edilir, bu yetərli deyil?**

- Daha geniş məlumat verilsə yaxşı olar.

**- Sonra jurnalistlərə verilən evlərin bölgüsündə qeyri-şəffaflığın olduğunu dilə gətirib deyibsiniz ki, elə jurnalistlər var, bir neçə yerdə evi ola-ola KİVDF-dən mənzil alır. Konkret belə faktınız varsa deyin...**

- Məsələn, mən Əli İmanlı adlı bir jurnalist tanıyıram. Vaxtilə rəsmi qəzetlərdə də çalışıb. İndi deyəsən jurnalist kimi fəaliyyət göstərmir. Tədbirlərin birində yaxınlaşıb mənə dedi ki, evə böyük ehtiyacı var, amma qocaman jurnalist kimi onu nəzərə almırlar. Bu bir misal. Azərbaycan jurnalistikasında xidmətləri olan, lakin hazırda peşə fəaliyyətini davam etdirə bilməyən jurnalistlər bu bölgüdən kənarda qalmamalıdır. Bu məsələdə araşdırma daha dərindən getməlidir. Veteran jurnalistləri də nəzərə almaq lazımdır.

**- Axı veteran jurnalistlərdən də çox ev alan oldu. Bir Əli İmanlıya görə ümumi danışmaq olmaz. Həm də dediz ki, o artıq jurnalist kimi fəaliyyət göstərmir. Sizin Vüqar Səfərli ilə aranızda hər hansı şəxsi münaqişəniz olubmu?**

- Vüqar Səfərli ilə mən ABŞ-da səfərdə olmuşam. Onunla çox gözəl səmimi münasibətlərimiz olub. Hətta onun bir tələbə yoldaşının evində birlikdə qonaq da olmuşuq. Vüqar Səfərli ilə mənim bu günə kimi zərrə qədər də problemim olmayıb.

**- Bəlkə ondan hansısa jurnalistlə bağlı xahiş edibsiniz alınmayıb, ona görə belə incikliyiniz yaranıb?**

- Heç bir xahişim olmayıb. Belə bir faktı varsa, qoysunlar ortaya. Bəlkə kimsə mənim adımdan nəsə danışıb, bunu bilmirəm. Belə hal olubsa, desinlər.

**- Bəs necə oldu ki, birdən-birə bu mövzuya toxundunuz? Əlinizdə belə faktlar olubsa, əvvəl niyə danışmamısınız?**

- Mənim jurnalistlərin arasında çox səmimi dostlarım var. Onlar bu və ya digər fikirləri, faktları mənə söyləmişdilər. Ancaq bunun ictimailəşməsinə ehtiyac düyməmdım. Ölkə Prezidenti tərəfindən ciddi və dərin islahatlara start verilib. Bu xüsusda mənə sual verildi ki, mətbuat sahəsində islahatlara ehtiyac var, yoxsa yox? Mən də bu suala cavab verdim. Mən arzulayıram ora daha çox vəsait ayrılsın ki, bizim qəzetlərimiz daha böyük imkanlara malik olsunlar və ictimai rəyin formalaşmasında daha peşəkarcasına iştirak etsinlər. Ancaq bu maliyyə vəsaitini daha səmərəli xərcləmək lazımdır.

**- Növbəti ilin dövlət büdcəsində KİVDF-yə daha çox vəsaitin ayrılması nəzərdə tutulur. Yəqin ki, fəaliyyətdən narazılıq olsaydı, belə hal yaşanmazdı və Fondun büdcəsi artırılmazdı...**

- Elə deyil. Bu hal ölkə Prezidentinin həyata keçirdiyi siyasətin məntiqinə söykənir. Bütün sahələrdə büdcələr atrırılıb və KİVDF də bundan kənarda qalmayıb. Bu heç də o demək deyil ki, yaxşı fəaliyyəti nəzərə alındığı üçün KİVDF-yə mükafat olaraq verilib.

Sonda Fəzail müəllimə Fonda maliyyənin artırılması ilə bağlı fikirlərinin də subyektiv olduğunu, reallığa uyğun gəlmədiyini və məhz Fondun fəaliyyəti nəticəsində bu gün ölkənin çap mediasının büsbütün, istisnasız olaraq dövlətçilik mövqeyində qərarlaşdığını, internet medianın isə KİVDF-nin kurasiyasında olmadığını xatırlatdıq. KİVDF bundan artıq nə etməlidir?!

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident təcrübəli, bir qədər yaşlı insanlara qarşı qara kampaniya təşkil edənlərə sərt xəbərdarlıq etdi...

*Yevlaxa və Xaçmaza təyin etdiyi icra başçıları ilə Prezidentin maraqlı söhbəti...*

**Prezident İlham Əliyev Anar Tağıyevi Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib. Baki-xeber.com-un xəbərinə görə, görüşdə çıxış edən Prezident İlham Əliyev deyib:**

- Mən sizi icra başçısı vəzifəsinə təyin edirəm. Siz bu günə qədər icra başçısının müavini vəzifəsində işləmisiniz, müəyyən təcrübə toplamısınız. İndi isə sizə böyük etimad göstərərək Xaçmaz və Yevlax rayonlarına icra başçısı vəzifəsinə təyin edirəm. Bu böyük etimaddır və siz bu etimadı doğrultmalısınız.

**Əvvəlki nazir onu işdən çıxarmaq istədi, mən qoymadım…**

-Xaçmaz rayonunda uzun illərdir ki, Şəmsəddin Xanbabayev işləyir. Şəmsəddin Xanbabayev Naxçıvanda ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Baş nazir vəzifəsində işləmişdir. Ondan sonra Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini vəzifəsində işləmişdir. Əvvəlki nazir onu işdən çıxarmaq istəmişdi, mən qoymadım. Çünki Şəmsəddin Xanbabayev həm təcrübəli insandır, eyni zamanda, ən ağır dövrdə Heydər Əliyevə öz dəstəyini göstərmişdi və Heydər Əliyev onu Naxçıvanın Baş naziri vəzifəsinə təyin etmişdi.

Son illər ərzində Xaçmaz rayonunda abadlıq işləri aparılıbdır, böyük infrastruktur layihələri icra edilibdir. Mənim təşəbbüsümlə modul tipli elektrik stansiyası tikilib, aqroparklar işə başlayıb, həm Bakıdan Xaçmaza qədər, eyni zamanda, kənd yolları çəkilib. Xaçmaz rayonunun çox böyük turizm potensialı var və hesab edirəm ki, gələcəkdə biz bu imkanlardan daha geniş şəkildə istifadə etməliyik. Şimal zonasının turizm imkanları doğrudan da çox genişdir. Bildiyiniz kimi, Qusar rayonunda, MDB məkanında ən yüksək səviyyəli dağ-xizək mərkəzlərindən biri fəaliyyət göstərir - Şahdağ kurortu. O da mənim təşəbbüsümlə yaradılmışdır. İlk dəfə mən o dağlara gələndə orada heç bir yaşayış, heç bir infrastruktur yox idi. Biz yollar çəkdik. Quba və Qusar rayonlarının sərhədində müasir elektrik stansiyası yaradıldı, qazlaşdırma aparıldı, elektrik enerjisi, su təchizatı təmin edildi. Yəni, bir sözlə Qusar rayonunun çox böyük inkişaf layihəsi icra edilmişdir. Bir daha demək istəyirəm ki, Şahdağ kurortu bu gün nəinki MDB-də, dünya miqyasında ən gözəl dağ-xizək kurortlarından biridir.

Xaçmaz rayonunun da özünəməxsus gözəl təbii şəraiti vardır. Təkcə Nabran bölgəsini qeyd etmək kifayətdir. Doğrudan da nadir təbii məkandır. Əlbəttə ki, orada turizm infrastrukturu müasir standartlara cavab verməlidir. Əfsuslar olsun ki, hazırda bu, belə deyil. Mən Xaçmaz rayonuna son səfərim zamanı oradakı turizm imkanları ilə tanış oldum, gördüm ki, indiki Azərbaycanın inkişaf səviyyəsinə uyğun gəlmir. Bir sıra istirahət zonaları çox primitivdir, xidmət səviyyəsi də çox aşağıdır. Ona görə bu məsələyə çox böyük diqqət göstərilməlidir. Dövlət xətti ilə lazımi kömək göstəriləcək. Ancaq yerli icra orqanları da bu sahəyə böyük diqqət göstərməlidirlər. O cümlədən Xaçmaz rayonunun böyük kənd təsərrüfatı potensialı vardır və orada yaradılmış Yalama aqroparkı çox böyük investisiya tutumlu layihədir. Digər sahələr üzrə də işlər düzgün aparılmalıdır. Yerli vətəndaşların müraciətlərini nəzərə alaraq, orada böyük suvarma layihələri icra edildi. Yəni, rayonun çox böyük potensialı var. İnfrastruktura gəldikdə, həm Olimpiya Mərkəzi, eyni zamanda, xəstəxana yaradılmışdır, abadlıq işləri aparılmışdır. Bu işlər davam etdirilməlidir, ancaq müasir səviyyədə, müasir tələblərə uyğun şəkildə.



Yevlax rayonunun da çox böyük potensialı vardır. Orada da böyük infrastruktur layihələri icra edilmişdir. Düzdür, içməli su və kanalizasiya layihələri, hələ ki, başlamamışdır. Xaçmaz rayonunda bu layihələr başa çatıb. Bir neçə gün bundan əvvəl "Azərsu" Səhmdar Cəmiyyətinə göstəriş verildi ki, Yevlax rayonunun içməli su və kanalizasiya layihəsinə start verilsin. Hazırda Azərbaycanda cəmi beş şəhərdə bu layihələr başlamayıb. Ancaq müvafiq göstərişlər verilib və bu işlər də davam etdirilməlidir.

**Siz daim kəndləri gəzməli, camaatla görüşməlisiniz…**

Sizin qarşınızda duran əsas vəzifələr rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafını təmin etməkdir. Siz vətəndaşlarla daim təmasda olmalısınız, bütün kəndləri gəzməlisiniz, kənd camaatı ilə görüşməlisiniz. Sizin işiniz kabinet işi olmamalıdır. Düzdür, əlbəttə ki, hər bir rəhbərin işi, o cümlədən qəbul edilən qərarlar, görülən işlər, keçirilən müşavirələr - bütün bunlar hər bir rəhbər işçinin gündəlik həyat tərzidir. Ancaq siz çox model başçılar kimi fəaliyyət göstərməlisiniz.

Mən bir neçə dəfə demişəm, əgər ölkəmizin bütün kəndlərinin problemləri həll olunarsa, deməli, bütün problemlər də həll olunacaq. Xüsusilə nəzərə alsaq ki, hazırda regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü dövlət proqramı icra edilir. Hesab edirəm ki, dördüncü proqramın icrası nəticəsində bu günə qədər həll olunmamış məsələlər tam şəkildə öz həllini tapacaqdır. Bu proqramın icrası Xaçmaz və Yevlax rayonlarını da əhatə edir. Siz vətəndaşların qayğıları ilə yaşamalısınız, onların problemlərini öyrənməlisiniz, düzgün təhlil aparmalısınız. Hansı məsələ rayon səviyyəsində həll oluna bilərsə, onları həll etməlisiniz. Əgər gücünüz çatmasa, onda mərkəzi icra orqanlarına müraciət etməlisiniz, o cümlədən Prezident Administrasiyasına ki, biz mövcud olan problemləri həll edək.

**Rüşvətxorluq, korrupsiya tam yığışdırılmalıdır…**

Eyni zamanda, siz vətəndaşlarla daim ünsiyyət əsnasında rayonun problemlərini və vətəndaşları narahat edən məsələləri daha dərindən öyrənib adekvat tədbirlər görməlisiniz. Bütün xoşagəlməz hallara son qoyulmalıdır, rüşvətxorluq, korrupsiya tamamilə yığışdırılmalıdır. Mən sizə şəxsən bu göstərişi verirəm. Əgər eşitsəm, bilsəm ki, əyri yola gedirsiniz, onda siz çox ciddi cəzalandırılacaqsınız. Bunu bəri başdan bilin və bütün başqa yerli icra orqanlarının nümayəndələri, rəhbərləri məni yaxşı eşitsinlər. Korrupsiyaya, rüşvətxorluğa qarşı Azərbaycanda amansız mübarizə aparılmalıdır. Bu yara bizim inkişafımızı ləngidir və gələcəyə olan planlarımızı sarsıda bilər. Düzdür, bu bəla hər bir ölkədə var. Amma əsas məsələ ondadır ki, rəhbərlik bu məsələyə necə münasibət göstərir. Azərbaycanda şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır. Ona görə bu məsələ ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə çox ciddi fəaliyyət göstərməlisiniz, tamamilə şəffaf vəziyyət yaradılmalıdır.

Rayonların abadlıq-quruculuq işlərinə diqqət yetirilməlidir, mövcud obyektlərin işlək vəziyyətdə olması da çox önəmlidir. Mənə verilən məlumatlara görə, bir neçə rayonda mənim iştirakımla açılmış Gənclər Mərkəzi indi bağlıdır, qapıya qıfıl vurulub və sadəcə olaraq görüntü naminə fəaliyyət göstərir. Bu dözülməzdir, buna vəsait xərclənib.

*(Ardı 9-cu səh.)*

*(Əvvəli 8-ci səh.)*

Gənclər mərkəzlərində gənclər öz asudə vaxtlarını keçirməlidirlər, orada maraqlı tədbirlər, intellektual oyunlar, vətənpərvərliklə bağlı tədbirlər təşkil olunmalıdır. Bu mərkəzlər tikilir, bir çox hallarda istifadə olunmur. Heydər Əliyev mərkəzləri, demək olar ki, hər bir rayon mərkəzində vardır. Nədir bu mərkəzlərin məqsədi? Odur ki, o mərkəzlərə vətəndaşlar gəlib öz asudə vaxtlarını keçirsinlər, o mərkəzlərdə dərnəklər fəaliyyət göstərməlidir, o mərkəzlərdə sərgilər keçirilməlidir. O mərkəzlər rayonun mədəni həyatının ayrılmaz hissəsi olmalıdır. Ancaq mənə verilən məlumata görə, bəzi hallarda açılışdan sonra yenə də qapıları qıfıllanır və faktiki olaraq bu mərkəzlər işləmir. Siz bu məsələ ilə çox ciddi məşğul olun.

### Bəzi icra başçıları talançılıqla məşğul idilər...

Bəzi icra başçıları saxta adamların adlarını siyahıya yazdırırdılar, onlara düşən vəsaiti mənimsəyirdilər və beləliklə talançılıqla məşğul idilər. Onların artıq cəzası verilibdir. Ona görə bu sahədə də tam şəffaflıq təmin edilməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə siz ən kasıb təbəqəni bu işlərə cəlb etməlisiniz ki, onlar işsiz qalmasın. Mən demək istəyirəm ki, bu ödənişli iş yerlərinin böyük əksəriyyəti bizə lazım deyil. Ancaq biz bunu ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun və rayonlarda iş axtaran işlə təmin olunsun. Yenə də demək istəyirəm ki, bu işlərdə artıq 40 minə yaxın vətəndaş işləyir və eyni zamanda, onların arasında bağbanlar, binaları təmir edənlər də var. O da bizə lazımdır. Ona görə bu sahəyə çox ciddi diqqət göstərilməlidir və elə etməlisiniz ki, vətəndaşlar sizin fəaliyyətinizdən razı qalsınlar.

### İctimai nəzarəti gücləndirmək üçün müvafiq təkliflər hazırlayın

İctimai nəzarət rayonlarda daha güclü olmalıdır. Buna nail olmaq üçün müvafiq təkliflər hazırlayın. İctimaiyyəti bizim ümumi işimizə cəlb etməliyik. Həm ictimaiyyət nümayəndələri öz səylərini göstərsinlər, həm də sizin işinizə, dövlət orqanlarının işinə nəzarət etsinlər. Əgər biz buna nail olsaq, onda hər hansı bir xoşagəlməz hadisə baş verərsə, biz dərhal ondan xəbər tutub lazımi tədbirləri görəcəyik. Bir çox hallarda rayonlardan gələn məlumat belədir ki, hər şey əladır, hər şey yaxşıdır, biz burada bütün işləri ən yüksək səviyyədə qururuq. Amma dərindən baxanda görürsən belə deyil, bəzi icra başçıları tərəfindən yalan məlumatlar ötürülür. Özlərini göstərmək, yaxud da ki, nöqsanlarını ört-basdır etmək üçün yalan raportlar verilir, rayonların inkişafı ilə bağlı, mövcud problemlərlə bağlı həqiqəti əks etdirməyən məlumatlar verilir. Ona görə mən də rayonlara tez-tez gedirəm ki, o problemləri xalqın dilindən eşidim. Biz bu problemləri həll etməliyik. Əgər kimsə problemləri malalamaq istəyirsə, səhv yoldadır. Sizə də tapşırıram, hər bir ölkədə problem var, biz o problemləri ört-basdır etməməliyik. Əksinə, üzə çıxarmalıyıq. O cümlədən mən media nümayəndələrinə də dəfələrlə müraciət etmişəm, demişəm ki, siz mənim köməkçilərimsiniz. Bəzi hallarda mən dözülməz vəziyyətlə bağlı mediadan xəbər tuturam. Bax, son hadisəni demək istəyirəm ki, Şamaxı rayonunda zəlzələ olub, oraya böyük vəsait ayrılıb. Mən oraya getmişəm, yeni tikilmiş evlərin açarlarını vətəndaşlara təqdim etmişəm. Ancaq o günləri televizorda baxıram ki, məktəb binasının yarısı uçubdur, çatlar var, uşaqlar qorxudan orada otura bilmirlər. Bəs yaxşı, bunun üstündən səkkiz ay keçibdir, bunu etmək mümkün deyilmi? Vəsait ayrılıb, göstəriş verilib, bir çox evlər tikilib, bu məktəb belə yararsız vəziyyətdə ola-ola bununla necə barışmaq olar? İndi əgər mediada, televizorda bu reportaj getməsəydi, mən bilməyəcəkdim. Mən bilən kimi dərhal göstəriş verdim. İndi orada işlər başlayacaq və o məktəb binası ya sökülüb yenidən tikiləcək, ya da ki, əsaslı təmir olunacaq. Ona görə ictimai nəzarət olmalıdır. Siz də bundan qorxmamalısınız, əksinə, ictimaiyyət sizə dəstək verməlidir.

### Təcrübəli, bir qədər yaşlı insanlara qarşı qara kampaniya təşkil etmək istəyənlərə imkan verməyəcəyəm

Siz gəncsiniz, birinizin 37, digərinizin 38 yaşı var. İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik. Ancaq onu da bildirməliyəm ki, bu, kampaniya xarakteri almamalıdır. Çünki mənə məlumat gəlir ki, bəziləri bunu kampaniyaya çevirmək istəyirlər və sınanmış, təcrübəli, bir qədər yaşlı insanlara qarşı bu kampaniyanı təşkil etmək istəyirlər. Mən buna yol verməyəcəyəm. Mən bilirəm kim nəyə qadirdir, kimin hansı xidmətləri olub əvvəlki dövrdə və bu gün. Ona görə Azərbaycanda təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır.

Bunun sintezi sayəsində biz gözəl nəticələrə çata bilərik. Bir də ki, yaşlı nəsil öz təcrübəsini bölüşməlidir. Ona görə hər kəs bilsin ki, mən bu kampaniyaya yol verə bilmərəm. Müəyyən dərəcədə xidmət göstərmiş insanlar, əlbəttə ki, dövlət tərəfindən də qiymətləndirilir və biz kampaniyaya yol verməyəcəyik. Eyni zamanda, təbii ki, gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır. Siz indi mənim təyin etdiyim kadrlar kimi elə işləməlisiniz ki, həm Yevlax camaatı, həm Xaçmaz camaatı minnətdarlıq bildirsin. Əgər siz bu etimadı doğrultmasanız mən sizi işdən çıxaracağam və cəzalandıracağam.

Gedin işə başlayın və bir daha deyirəm ki, Prezidentin və xalqın yüksək etimadını doğruldun.

***Baki-xeber.com***

**Məlum olduğu kimi, oktyabrın 29-da ABŞ Konqresinin Nümayəndələr Palatası saxta "erməni soyqırımı"nı tanıyan qətnamə qəbul edib. Nümayəndələr Palatası Türkiyəyə qarşı "Sülh bulağı" əməliyyatı və Rusiyadan "S-400"ləri alması ilə bağlı sanksiyaların tətbiqi haqqında qanun layihəsini də təsdiqləyib.**

# Saxta bir "erməni genosidi"nin xatirinə ABŞ-dan anlaşılmayan siyasət - Türkiyə ilə ittifaq pozulur, NATO dağılır...



Layihəyə əsasən, yüksək çinli türk məmurlarına, o cümlədən, milli müdafiə naziri Hulusi Akar və "Xalq Bank"a qarşı sanksiya tətbiq edilməlidir. Üstəlik, layihədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ailəsinin aktivlərinin öyrənilməsi haqqında bənd də yer alıb. Sanksiya qanununun qüvvəyə minməsi üçün onu Senat və Prezident təsdiqləməlidir.

Nümayəndələr Palatasının sözügedən qərarı Türkiyənin etirazına səbəb olub. Türkiyə Xarici İşlər Nazirliyi layihəni kəskin tənqid edib və bunun NATO, eləcə də ABŞ-la Türkiyə arasındakı Suriya razılaşmasının ruhuna zidd olduğunu bəyan edib. Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu, öz növbəsində, saxta "soyqırım"la bağlı qərarı haqlı olaraq rüsvayçı, iki ölkə münasibətlərinə zərbə vuracaq siyasi qərar adlandırıb. Ən absurdu odur ki, qanun layihəsində Türkiyə Suriyaya hərbi müdaxilədə qınanır. Halbuki, ABŞ-ın özü Türkiyədən xeyli qabaq, rəsmi Dəməşqin razılığı olmadan Suriyaya girib.

### *Məhəmməd Əsədullazadə: "Türkiyə-Birləşmiş Ştatlar əlaqələrində artıq müttəfiqlik çalarları yoxdur"*

Uydurma "genosid"in tanınmasına gəlincə, qətnamədə qərarın hüquqi anlam və məcburi xarakter daşımadığı vurğulanır. Ancaq, bütün hallarda, iki ölkə münasibətlərinə ciddi mənfi təsir edə bilər.

Maraqlıdır, bütün bunlar Türkiyə-ABŞ müttəfiqlik münasibətlərin pozulmasına gətirib çıxara bilərmi? Baş verənlərin fonunda, Türkiyənin hətta NATO-dan çıxma perspektivi varmı?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, ABŞ Türkiyəni qazanmaq əvəzinə itirir: "Konqresin Nümayəndələr Palatasının "erməni soyqırımı" qətnaməsini qəbul etməsi ABŞ-ın daxili siyasətində gedən proseslərlə bağlıdır. Buna baxmayaraq, demokratların üstünlük təşkil etdiyi Nümayəndələr Palatasının bu qərarı Senatda və

### *"Vaşinqtonun məlum davranışları NATO-nu zəiflədəcək"*

Ağ Evdə qəbul edilməyəcək. Bu qərar Türkiyə-ABŞ əlaqələrinə mənfi təsir etməklə yanaşı, Vaşinqtonun Yaxın Şərqdə mövqeyini zəiflədəcək. Görünən odur ki, ABŞ öz geosiyasi maraqlarına Yaxın Şərqdə çox ciddi zərbə vurur. Türkiyəni qazanmaq əvəzinə daha da itirir. Bu da regionda Rusiya-İran və Türkiyə oxunun güclənməsinə gətirir. Qeyd edim ki, Türkiyə-ABŞ əlaqələrində artıq müttəfiqlik çalarları yoxdur. Hər iki ölkə kağız üzərində müttəfiq qalmaqdadır. Türkiyənin Suriyada aktiv siyasi-hərbi gedişləri ABŞ-ın müəyyən dairələrində qəzəb yaradır. Burada yəhudi lobbisinin də fəaliyyəti danılmazdır. Çünki Türkiyənin Yaxın Şərqdə güclənməsi İsrailin mövqeyini zəiflədir. Təbii ki, prosesdə itirən tərəf ABŞ-dır. Göründüyü kimi, ABŞ öz ənənəvi və etibarlı müttəfiqini kürd və erməni ideoloji terroruna dəyişir. Türkiyə artıq regional oyunçudur və ABŞ-ın bu sanksiyaları onu daha da gücləndirir. Yeni dünya nizamında ABŞ-Türkiyə müttəfiqliyi olmayacaq. Bunun əsas səbəbi Vaşinqtonun Türkiyənin müstəqil siyasətini qəbul etməməsi və lobbi dairələrindən asılı olmasından irəli gəlir.

Bu siyasət ABŞ-ın beynəlxalq nüfuzunu zəiflədir və etibarlı dövlət imicinə zərbə vurur. Bundan sonra Türkiyə Rusiya ilə daha da sıx əməkdaşlığı inkişaf etdirəcək. Çin kimi iqtisadi-hərbi nəhəng ölkə bu sırada yer alacaq. ABŞ-ın zor gücünə siyasəti öz əleyhinə işləyir. Bütün bunlarla yanaşı, yaxın perspektivdə Türkiyə NATO-dan çıxmayacaq. Ancaq Vaşinqtonun məlum davranışları NATO-nu zəiflədəcək. Azərbaycan və Türkiyə yeni dünya nizamında birlikdə siyasət yürütməli və həmrəylik nümayiş etdirməlidirlər".

***Vidadi ORDAHALLI***

**Müsahibimiz ömrünün 60 ildən çoxunu Bakı Dövlət Universitetinə həsr edən BDU-nun İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzinin rəhbəri, fəlsəfə elmləri doktoru, professor, BMT-nin sülh səfiri, "Söz" Akademiyasının üzvü, "Tərəqqi" medallı, məşhur 91-lərdən biri Əsədulla Qurbanovu redaksiyamıza dəvət etdik. Əsədulla müəllim həm BDU-nun 100 illik fəaliyyətindən danışdı, həm də xalqımızın böyük oğlu, müasir Azəbaycan dövlətinin qurucusu Heydər Əliyevlə görüşlərini, söhbətlərini xatırladı.**

# "Heydər Əliyev Rəfael Allahverdiyevə dedi ki..."

*Əsədulla Qurbanov: "Heydər Əliyev dedi ki, Gəncədə baş verən hərbi qiyamın qarşısı alınmasa, bu dövlət də və bu xalq da yoxdur..."*

*(Əvvəli ötən sayımızda)*

**- Deyirsiniz Heydər Əliyevlə 17 dəfə görüşmüsünüz. O, ondan götürdüyünüz müsahibəni xatırlayırdımı?**

- Bəli, xatırlayırdı. Onun çox gözəl yaddaşı vardı, heç bir hadisə yadından çıxmırdı. Heydər Əliyevlə hər görüşüm bir tarixdir. Sizinlə danışarkən Heydər Əliyevlə bağlı daha bir görüşümü xatırlamaq istəyirəm. 1974-cü il idi. Bahar bayramı qabağı idi. Mən həyat yoldaşımla qohumları Bahar bayramı münasibətilə təbrik etmək üçün şəhərə gəldik. Biz 8-ci kilometr qəsəbəsində yaşayırıq. O vaxt çox məşhur olan "Beşmərtəbə" deyilən yerdə çox yaxşı bir mağaza vardı. Yoldaşımla həmin mağazadan hədiyyələr alıb çıxmaq istəyirdik ki, bu zaman mağazanın qapısı açıldı və Heydər Əliyev içəri girdi. Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi idi. Heydər Əliyev içəri girib, düz gəlib ət satanın qarşısında dayandı, üzünü satıcıya tutub soruşdu: "ay oğul, siz nə üçün üç müxtəlif növ əti eyni tərəzidə çəkirsiniz? İllah da ki, sabah Bahar bayramıdır". Həmin mağazada qoyun, mal və donuz əti satılırdı. Siz Heydər Əliyevin həssaslığına, diqqətinə baxın. Heydər Əliyev kifayət qədər nümunəvi, milli bir şəxsiyyət idi. Mən irəli yeridim və dedim ki, Heydər Əliyeviç, bu sözü biz ziyalılar ona deməliydik. Baxdı, gülümsədi. Dedim, Heydər Əliyeviç, mən Bahar bayramınızı təbrik edirəm. Əlini çiynimə qoyub "bahəm, mən də sizi təbrik edirəm" dedi.

**- Sizi tanımışdı?**

- Bəli. Mən onunla ilk dəfə 1957-ci ildə görüşmüşdüm, sonra isə 1974-cü ildə təsadüfən görüşdüm.

**- Heydər Əliyevlə daha sonra nə zaman görüşdünüz?**

- Sonra 1992-ci ildə, Yeni Azərbaycan Partiyasının Birinci Qurultayında da görüşdük. Biz qurultayda iştirak etmək üçün Naxçıvana getmişdik. Soyuq bir gün idi. Bilirsiniz ki, Naxçıvan soyuq olan yerdir. Qurultay Naxçıvan Dövlət Dram Teatrının yerləşdiyi binada keçirilirdi. Həmin qurultayda məni 91-lərdən biri kimi siyasi şuranın üzvü seçdilər. Heydər Əliyevlə əlaqələrimiz bundan sonra daha da möhkəmləndi, tez-tez əlaqə saxlamağa başladıq. 1993-cü ildə Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Rəfael Allahverdiyevlə birgə partiyanın mərkəzi aparatında gözləyirdik ki, Naxçıvandan bizə tapşırıq veriləcək. Axşamüstü idi, Heydər Əliyevdən zəng gəldi. O, Rəfael Allahverdiyevlə danışırdı. Dedi ki, Rəfael, bilirsən Gəncədə nə baş verib? Rəfael Allahverdiyev "Bilirəm, Heydər Əliyeviç" - deyə cavab verdi. Heydər Əliyev dedi ki, Gəncədə baş verən hərbi qiyamın qarşısı alınmasa, bu dövlət də və bu xalq da yoxdur, respublikanın nüfuzlu ağsaqqallarını başına yığ, get Elçibəyin yanına, ona vəziyyəti izah et və başa salın ki, bu hərbi qiyamın qarşısı alınmalıdır. R.Allahverdiyev Heydər Əliyevə "baş üstə" dedi. Sonra Heydər Əliyev R.Allahverdiyevə dedi ki, professor Əsədulla Qurbanovu axtar tap və onun yaxşı bir dostu var - Mərkəzi Komitənin keçmiş birinci katibi İmam Mustafayev, o gedib onu da bu işə cəlb etsin.

**- Demək, akademik İmam Mustafayev həmin dövrdə sağ idi...**

- Bəli. O, Azərbaycan Elmlər Akademiyasının Genetika və Seleksiya İnstitutunun direktoru işləyirdi. Mən durub İ.Mustafayevin yanına getdim və gördüm ki, o, kabinetdə yoxdur. İşçilərdən onun yerini soruşdum, dedilər ki, institutun həyətində kiçik bir daxma var, orada xəstə yatır. Düzü, çox pis oldum. Həmin otağa getdim, gördüm ki, dəmir çarpayıda tək-tənha, xəstə yatır. Dedim ki, İmam dayı, mənə Heydər Əliyev belə bir tapşırıq verib. Dedi ki, ay Əsədulla, əvvələ mən sizin partiyanın üzvü deyiləm, ikincisi də görürsən, xəstə yatıram, halım pisdir. Dedim nə olub sizə? "Qrip olmuşam" dedi. Mən dərhal 91-lərdən olan Munis Bayramova zəng vurub dedim ki, Munis, get köhnə univermağın yanında bir mağaza var, orada yaxşı moruq, zoğal mürəbbəsi satılır, onları al gətir. Munis dediklərimi alıb gətirdi, çay içdik, kişi bir az özünə gəldi. Mən və İ.Mustafayev Munisin maşını ilə Elçibəyin yanına getdik. Biz Elçibəyin otağına girəndə gördük ki, komandası yanında oturub. Çünki Rəfael ona məlumat vermişdi, o bizi gözləyirdi. Elçibəyin kabineti tüstü-duman içində idi, o qədər siqaret çəkmişdilər ki... İ.Mustafayev dedi ki, ay Əbülfəz, sən harada işləyirsən, bu nə gün-dirlikdi? O da dedi ki, İmam dayı, bu "mehrallılar" mənim sözümə qulaq asmırlar və otaqda siqaret çəkirlər. İmam müəllimin sözündən sonra hamısı durub çıxdılar, otaqda yalnız Əbülfəz Elçibəyin köməkçisi Seyfəddin Əhmədov və indiki millət vəkili Fazil Mustafa qaldılar. F.Mustafa onda hüquq şöbəsinin müdiri idi. Biz Elçibəyə gəlişimizin məqsədini dedik. Bizə tapşırıq verilmişdi ki, çalışıb Surətlə görüşün. Bunu Elçibəyə dedik. Elçibəy dedi ki, Surət mənim zəngimə cavab vermir, özü də telefonu götürmür, (əlini boğazına uzadıb - Ə.Q.) məni də yığıb bura. İmam müəllim dedi ki, Surətlə telefon əlaqəsi yaradın, onunla danışmaq istəyirəm. Telefonla hava yolu ilə, dövlət xətti ilə Gəncəyə qoşulduq. İ.Mustafayev salamlaşan kimi Surətin səsi eşidildi: "İmam dayı, sizsiniz?" İmam müəllim dedi ki, bəli, mənəm. Surət İ.Mustafayevə dedi ki, siz Gəncəyə gəlirsinizsə, mən tabe. Gəncədə lazım olan işləri gördük. Görüşdə Ə.Elçibəy demişdi ki, Surətin bir qardaşı var - Şöhrət Hüseynov, Xətai rayonunda müəllim işləyir, onu bura gətiriblər, Prezident Aparatındadır, bizim də 4 adamımızı Surət tutub. O adamlar kimlər idilər? Surət keçmiş baş prokuror İxtiyar Şirinovu, keçmiş milli təhlükəsizlik nazirinin müavini Sülhəddin Əkbər və daha iki nəfəri tutmuşdu. Elçibəy bizdən xahiş etmişdi ki, o dörd nəfəri Gəncədən özünüzlə gətirin və qardaşını da Surətə təhvil verin. Elçibəy "Şöhrəti aparın, onları gətirin" dedikdə, İ.Mustafayev bildirdi ki, Şöhrətin günahı varsa, aparmayacağıq, onların da günahı varsa, gətirməyəcəyik. Elçibəy də dedi ki, siz ağsaqqalsınız, böyük adamsınız, nə təhər məsləhətdir, elə də edin. Biz Gəncədə həmin o dörd nəfəri çağırdıq. İyunun 6-da Gəncədə olduq, 7-də qayıtdıq. 8 iyun 1993-cü ildə Elçibəyin yanında nəticələri müzakirə edirdik. Amma həmin o dörd nəfər müzakirəyə gəlmədilər. İ.Şirinov demişdi ki, Ə.Elçibəy cinayətkardır. Mən də ona dedim ki, İxtiyar müəllim, siz hüquqşünazsınız, mən filosofam, məhkəmə qərarı olmadan kimsə "cinayətkar" demək olmaz. Dedi ki, yaxşı, siz deyən olsun, amma o biriləri istefa versin. Dedim ki, bu, başqa məsələ. Elçibəylə bir-birimizi çoxdan tanıyırdıq, o mənim tələbə yoldaşım olmuşdu. Elçibəy iclasda mənə dedi ki, o birilər getsin, sən qal.

**- Elçibəy Sizi nə üçün saxladı?**

- Mən ondan elə bunu soruşdum. Dedi ki, qardaş, sən məni iki dəfə ölümdən qurtarmısan, üçüncüyə də ehtiyacım var.

**- Nəyi nəzərdə tuturdu?**

- Mən ondan onu ölümdən necə qurtarmağı soruşdum. Dedi ki, özün bilirsən. 1974-cü ildə o, türmədən yeni çıxmışdı və mən onu Balakənin Katex kəndinə, doğulduğum kəndə apardım, 2 ay orada qaldı. Bakıya gələndən sonra Cahangir Qəhrəmanovdan xahiş etdim ki, onu işə götürsün, götürdü. Mənim ona yaxşılıqlarım o idi. Təkbətək qaldıqda Elçibəy dedi ki, başımı itirmişəm, qardaş, mənə kömək et. Dedim düz deyirsən? Dedi bəli. Cavab verdim ki, yeganə yol Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət edilməsidir, başqa yol yoxdur. Elçibəy dedi ki, o məndən inciyib, telefon zənglərimə cavab vermir, özü də zəng vurmur. Elçibəy dedi ki, Heydər Əliyev qardaşı akademik Həsən Əliyevin yasında mənimlə saatlarla söhbət etdi, çox tövsiyələr verdi, komandamda olanlar Heydər Əliyevin dediklərini etməyə qoymadılar. Elçibəyin köməkçisi Seyfəddin Əhmədov telefonla Naxçıvanı qoşdu və Heydər Əliyev dəstəyi götürdü. Elçibəy pıçıltı ilə soruşdu ki, qardaş, nə deyim? Dedim de ki, xalqın adından, 91-lər adından sizi Bakıya ən ali siyasi vəzifəyə dəvət edirəm. Elçibəy həmin sözləri Heydər Əliyevə dedi. Heydər Əliyev ondan soruşdu ki, sən əvvəllər belə danışmırdın, sənin yanında kimsə var? Elçibəy "bəli, var, sizinkilərdəndir" dedi. Dedi bilirəm bizimkilərdəndir, konkret kimdir? Elçibəy cavab verdi ki, professor Əsədulla Qurbanovdur. Sonra Heydər Əliyev Elçibəyə mənimlə danışmaq istədiyini bildirdi, biz salamlaşdıq, mən ona baş verənlərlə, görülən işlərlə bağlı məruzə etdim. Sonra məndən "buna (Əbülfəz Elçibəyi nəzərdə tuturdu - Ə.Q.) inanmaq olarmı?" - deyə soruşdu. Dedim indi olar, çünki səhvlərini başa düşüb. Sonra Elçibəyə dedi ki, sabah gəlirəm (yəni iyunun 8-i - Ə.Q.). Dediyi vaxt gəldi Bakıya və iyunun 13-ü Gəncəyə getdi. İyunun 15-i Ali Sovetin sədri seçildi. Bu çox böyük tarixdir.

Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının qurucusu, memarı kimi dövlətçiliyimizi qurdu. Bu dövlət, dövlətçilik Heydər Əliyevin xalqımıza bəxş etdiyi tükənməz sərvətdir.

Heydər Əliyev Prezident seçildikdən sonra elmə, təhsilə xüsusi diqqət yetirdi, 100 illiyini qeyd etdiyimiz Bakı Dövlət Universitetinə də böyük töhfələr bəxş etdi.

***İradə SARIYEVA***



*"Elçibəy dedi ki, Heydər Əliyev qardaşı akademik Həsən Əliyevin yasında mənimlə saatlarla söhbət etdi, çox tövsiyələr verdi, komandamda olanlar Heydər Əliyevin dediklərini etməyə qoymadılar"*

# Bakı Slavyan Universitetində Primakovun xatirəsinə birmənalı qarşılanmayan tədbir...

**Bakı Slavyan Universitetinin bir qrup tələbəsinin Yevgeni Primakovun 90 illik yubileyi ilə bağlı keçirilmiş esse müsabiqəsində qalib olmaları sosial şəbəkələrdə ciddi tənqid edilib. Y.Primakov Azərbaycan xalqının yaddaşında Qarabağ faciəsi və qanlı 20 Yanvar təcavüzünün təşkilatçılarından biri kimi qalıb. Həmin şəxsin xatirəsinə esse müsabiqəsi keçirilməsini isə bir sıra şəxslər cinayət adlandırıblar.**

Məsələ ilə bağlı Azərbaycan Xalq Hərəkatının liderlərindən olan Etibar Məmmədov, Müsavatın eks başqanı İsa Qəmbər və Qarabağ qazisi, tanınmış jurnalist Rey Kərimoğlu kəskin reaksiya veriblər və bunu 20 Yanvar şəhidlərimizə qarşı böyük hörmətsizlik kimi dəyərləndiriblər.

Qeyd edək ki, müsabiqədə Beynəlxalq münasibətlər, Regionşünaslıq və Jurnalistika fakültələrinin tələbələri iştirak ediblər. Qalibləri Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov mükafatlandırıb.

"20 Yanvar" İctimai Birliyi, "Qarabağ Qaziləri" İctimai Birliyi, Azərbaycan Qarabağ Əlilləri, Şəhid Ailələri və Veteranları Birliyi, "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyi, Azərbaycanın Milli Qəhrəmanı Asif Məhərrəmov (Fred Asif) adına İnkişaf Fondu, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi, Tərxis Olunmuş Hərbçilər İctimai Birliyi, Çernobıl Əlillər İttifaqı Bakı Slavyan Universitetində əli Azərbaycan xalqının qanına batmış Yevgeni Primakovun 90 illik yubileyinə həsr olunan tədbirlərin keçirilməsinə etiraz olaraq birgə bəyanat veriblər.

Bəyanatda deyilir: "Bakı Slavyan Universiteti Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyi ilə birlikdə 1990-cı ilin 20 Yanvar hadisələrinin təşkilatçılarından və icraçılarından biri olan Yevgeni Primakovun anadan olmasının 90 illiyi ilə əlaqədar olaraq esse müsabiqə keçirib. Oktyabrın 15-də esse müsabiqənin qaliblərinə Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyində diplomlar təqdim olunub. Rusiya İnformasiya və Mədəniyyət Mərkəzi tərəfindən əlləri xalqımızın qanına bulaşmış qatilin - Yevgeni Primakovun 90 illiyinə həsr olunmuş sərgi də keçirilib. 20 Yanvar hadisələri zamanı və ondan sonrakı günlərdə 150 nəfərin şəhid olmasının, 744 nəfərin yaralanaraq əlil olmasının, 2 mindən çox vətəndaşımızın həbs olunaraq təzyiqlərə məruz qalmasının əsas təşkilatçılarından biri olan bu cəlladın - Yevgeni Primakovun 90 illiyinə həsr olunmuş tədbirlərin keçirilməsi Azərbaycan xalqının heysiyyatına və şəhidlərimizin ruhuna qarşı təhqirdir. 20 Yanvar, Qarabağ şəhid ailələri və əlilləri adından müvafiq dövlət qurumlarından tələb edirik: 1. Yevgeni Primakov adlı caninin şərəfinə təşkil olunmuş sərgi dərhal dayandırılsın.

2. Bakı Slavyan Universitetinin rəhbərləri xalqımıza qarşı törətdikləri ağır cinayətə bərabər olan hərəkətlərinə görə təxirə salınmadan tutduqları vəzifədən azad edilsin.

3. Baş verən rəzalətə görə təşkilatçılar vətənin ayrılmaz hissəsi olan Qarabağ uğrunda 20 min şəhid verən Azərbaycan xalqından, o cümlədən, 20 Yanvar şəhid ailələrindən və əlillərindən üzr istəsinlər".

Bakı Slavyan Universitetinin mətbuat xidməti yaranmış vəziyyətlə bağlı mövqe bildirib:

"Oktyabrın 30-da sosial şəbəkələrdə Bakı Slavyan Universiteti (BSU) haqqında reallığa əsaslanmayan, müasir şəraitə uyğun gəlməyən yazı dərc edilib. Həmin yazıda BSU-nun tələbələrinin sovet və Rusiya dövlət xadimi Yevgeni Primakovun 90 illik yubileyi və onun XX-XXI əsrin qovuşuğunda beynəlxalq münasibətlərdə rolu ilə bağlı keçirilmiş esse müsabiqəsində iştirak etmələri tənqid edilir. Eyni zamanda, BSU-nun rektoru, professor Nurlana Əliyeva haqqında əsassız iddialar özünə yer alır".

Məlumatda qeyd edilib ki, Yevgeni Primakovun 90 illik yubileyi və onun XX-XXI əsrin qovuşuğunda beynəlxalq münasibətlərdə rolu ilə bağlı keçirilmiş esse müsabiqəsi Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyinin layihəsi olub: "BSU-nun yazı müsabiqəsinin qalibi olmuş tələbələri səfirliyin BSU-ya rəsmi məktubu əsasında həmin yazı müsabiqəsində iştirak ediblər. BSU slavyan xalqlarının, həmçinin, Şərqi Avropa və Balkan yarımadası ölkələrinin elmi, mədəni, mənəvi nailiyyətlərini öyrənir və tədris edir. BSU yalnız Azərbaycanda deyil, Qafqazda ən böyük və nüfuzlu Rusiyaşünaslıq mərkəzi sayılır. Çoxprofilli ali məktəb olan BSU-da, bütövlükdə, region üçün nadir sayıla biləcək ixtisaslar üzrə mütəxəssislər hazırlanır. Hazırda BSU-da 10 tədris-mədəniyyət mərkəzi fəaliyyət göstərir. Həmin tədris-mədəniyyət mərkəzlərindən biri də Rusiya Tədris-Mədəniyyət Mərkəzidir. BSU Azərbaycanda fəaliyyət göstərən slavyan ölkələrinin, o cümlədən, Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyi ilə sıx əlaqədə fəaliyyət göstərir. Slavyan ölkələrinin səfirləri, səfirliklərin nümayəndələri BSU-da keçirilən beynəlxalq elmi konfranslarda, simpoziumlarda, "dəyirmi masa"larda, dövlət və milli bayramlarda və digər tədbirlərdə mütəmadi olaraq iştirak edirlər. Eyni zamanda, BSU-nun müəllim və tələbələri həmin səfirliklərdə müxtəlif mövzularda keçirilən mühazirələrdə, mərkəzlərin təşkil etdiyi müsabiqələrdə, həmin ölkələrin dövlət bayramlarında və digər tədbirlərdə fəal iştirak edirlər.

Yazıda adları çəkilən tələbə-gənclər əcnəbi tələbələrdir və Rusiya Federasiyasının vətəndaşlarıdırlar".

Məlumatda, həmçinin, qeyd olunub ki, Rusiya Federasiyası Azərbaycanın böyük qonşusudur: "Tarixən ölkələrimiz arasında sıx siyasi, iqtisadi, mədəni əlaqələr mövcud olub. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş balanslaşdırılmış xarici siyasət kursunu Azərbaycan Prezidenti İlham Əliyevin müasir dövrün reallıqlarına və tələblərinə uyğun şəkildə yaradıcılıqla davam etdirməsi nəticəsində Azərbaycan və Rusiya arasında münasibətlər bütün sahələrdə yüksələn xətlə inkişaf edir. Universitetin kollektivi belə, həqiqəti əks etdirməyən yazıları ictimai fikri çaşdırmaq, universitetin işgüzar nüfuzuna xələl gətirmək cəhdi kimi qiymətləndirir və buna birmənalı olaraq öz etirazını bildirir. Həmin yazıda BSU-nun rektoru, professor Nurlana Əliyeva haqqında səslənən əsassız iddialara isə cavab olaraq bildirmək istəyirik ki, N.Əliyeva xalqımızın milli maraqlarına, dövlətə və dövlətçiliyə sədaqətli bir elm və təhsil xadimi, ziyalı Azərbaycan xanımıdır. Belə yoxlanılmadan dərc edilən yazılar universitetin kollektivində böyük narazılıq hissi doğurur və yolverilməzdir. Buna görə də hörmətli media təmsilçilərindən, vətəndaş cəmiyyəti institutunun nümayəndələrindən, siyasi partiya funksionerlərindən dövlət və dövlətçiliklə bağlı belə siyasi mövzulara real və həssas yanaşmağı, ictimai-siyasi əhəmiyyət kəsb edən hadisələrə obyektiv yanaşmağı xahiş edirik".




İctimai-Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu çox biabırçı bir haldır: "Nurlana Əliyeva həmin universitetə rəhbər təyin ediləndən sonra biz BSU-nun adının yalnız qalmaqallarda hallandığını görürük. Əvvəl universitetin binasının fasadında olan tarixi mozaikanı sökdülər. Sonra başqa neqativliklərin ictimailəşməsinin şahidi olduq. İndi də bu məsələ. Mən bir neçə dəfədir universitetin adı hallanan hansısa məsələyə reaksiya verdiyinin şahidi oluram. Təhsil müəssisəsinin adından yayılan həmin məlumatlarda səhvin etiraf olunması əvəzinə, jurnalistlərə hədə-qorxu gəlinir, kimlərinsə guya belə məlumatları məqsədli yazdığına dair rəy formalaşdırmağa çalışılır. Siz bu məsələ ilə bağlı onların adından yayılan məlumata baxın. Az qalırlar yazalar ki, əcəb etmişik. Gah yazırlar ki, müsabiqədə iştirak edən əcnəbi tələbələr olub, gah da Primakovun böyük dövlət adamı olduğunu qeyd etməklə özlərinə haqq qazandırmağa çalışırlar. Götürək ki, esseni yazan əcnəbilərdir. Yaxşı, müsabiqə harada keçirilib? Nurlana Əliyeva niyə buna icazə verib? Ya bilərəkdən edib, ictimai rəyi heç saymayıb, ya da tariximizi yaxşı bilmir. Yoxsa belə etməzdi. Hər iki hal bizim üçün acınacaqlıdır. Mən bunu pisləyirəm və bağışlanmaz səhv sayıram. Hesab edirəm ki, baş vermiş bu hadisədən sonra Nurlana xanım istefa verməlidir. Yoxsa, üzürü günahından betər mövqe ifadə etməklə cəmiyyəti qıcıqlandırmaq olmaz".

***Məhəmmədəli QƏRİBLİ***

# Qondarma "Artsax"ın adından Krımda konsert və ABŞ-da "müstəqillik bayramı"...

**Ermənilər qondarma "Artsax Respublikası"nı tanıtmaq üçün dəridən-qabıqdan çıxırlar. Vaxtaşırı olaraq müxtəlif ölkələrdə "Artsax" adı ilə təmsil olunmağa çalışırlar. Yayılan məlumatlara görə, "Artsax" adlandırılan mahnı və rəqs ansamblının Krımda konserti olacaq. Noyabrın 2-də keçirilməsi nəzərdə tutulan konsertin biletlərinin satışda olması ilə bağlı Ermənistan mətbuatında məlumat yer alıb.**



***Məhərrəm Zülfüqarlı:** "...ABŞ və Rusiyanın "Artsax"ın "müstəqilliyini" tanımasına dəlalət etmir"*

***Faiq Ələkbərli:** "Ermənilər bu tədbirləri keçirərkən dünyanın iki super dövlətinin - ABŞ və Rusiyanın adından sui-istifadə edirlər"*

Bundan başqa, son zamanlar ermənilər "Artsax"ın "müstəqillik günü"nü də hər il qeyd edirlər. Hətta qondarma "respublika"nın "müstəqillik günü" ABŞ-da erməni icması tərəfindən də keçirilir.

"Artsax" mahnı və rəqs ansamblının Krımda verəcəyi konsert və "müstəqillik günü"nün ABŞ-da qeyd edilməsi kəskin reaksiyalar doğurur. "Artsax"ın adından çıxış edən ermənilər bu epizodik olaylardan sui-istifadə edərək bunu guya iki super dövlətin "Artsax"a dəstək verməsi kimi təbliğ edirlər. "Artsaxn "müstəqilliyinin" ildönümlərinin ABŞ-da rəsmi dövlət səviyyəsində qeyd edilmədiyini deyən ekspertlərin fikrincə, "Artsax"ın adı ilə baş tutan istənilən tədbir erməni icmasının, erməni lobbisinin, eləcə də Rusiya və ABŞ-dakı ermənipərəst qüvvələrin dəstəyilə həyata keçirilir.

Tanınmış siyasi icmalçı, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, "Artsax" mahnı və rəqs ansamblının Krımda konsertinin təşkil edilməsi əsasən buradakı erməni lobbisinin və bəzi ermənipərəstlərin işidir. Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olduğunu deyən M.Zülfüqarlının sözlərinə görə, ermənilər "Artsax"ı "müstəqil respublika" kimi tanıtmaq üçün cilddən-cildə girirlər. "Bilirsiniz, Krımda "Artsax" mahnı və rəqs ansamblının konsertinin təşkil edilməsində Rusiya dövlətinin rolu inandırıcı görünmür, bu konserti bəzi ermənipərəst qüvvələr təşkil ediblər, təbii ki, burada erməni lobbisinin də əli var. Hesab edirəm ki, həm Krımda "Artsax" ansamblının konsertinin təşkil edilməsi, həm də "Artsaxın müstəqillik günü"nün qeyd edilməsi ABŞ və Rusiyanın "Artsax"ın "müstəqilliyini" tanımasına dəlalət etmir. Hər iki super dövlət Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsinə çalışdıqlarını bəyan edirlər. Erməni lobbisi və Ermənistan bu qondarma tədbirləri erməni icmasının əli ilə təşkil edərək və bura ermənipərəst qüvvələri cəlb edərək, belə rəy yaratmaq istəyirlər ki, guya dünyanın iki super dövləti bunları dəstəkləyir, "Artsax"ın "müstəqilliyini" tanıyır. Belə deyil. Bu günə kimi nə Rusiya, nə ABŞ "Artsax"ın "müstəqilliyini" tanımayıb, heç Ermənistan parlamenti özü də bu addımı atmayıb. "Artsax" adından xaricə gedənlər Ermənistan pasportu ilə gedirlər. Yəni onlar "Artsax"ın vətəndaşları kimi gedə bilmirlər, Ermənistan pasportundan istifadə edirlər".

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli də hesab edir ki, ermənilərin əsas məqsədi qondarma "Artsax"ın "müstəqilliyinin" tanıdılmasına nail olmaqdır. F.Ələkbərlinin sözlərinə görə, nə qədər ki, Azərbaycan xalqı və dövləti öz torpaqlarını işğaldan azad etməyib, ermənilər qondarma "respublika"nın adının daha çox ölkədə eşidilməsi üçün təbliğatlarını davam etdirəcəklər. "Qondarma "Artsax"ın təmsilçilərinin bu cür həyasızlaşmasına, öz çirkin niyyətlərini, yalançı təbliğatlarını həyata keçirmələri üçün atdıqları istənilən addıma kəskin reaksiya verilməlidir. Nə qədər ki, Azərbaycan dövləti öz torpaqlarının işğaldan azad edilməsinə nail olmayıb, bir o qədər ermənilər azğınlaşacaq. Qondarma "Artsax"ın eyni adlı musiqi qrupu Krımda konsert verməyə hazırlaşır, yaxud erməni icması ABŞ-da "Artsaxın müstəqillik günü"nü qeyd edir, bütün bunlar erməni həyasızlığının nəticəsidir. Onlar bu addımı, əslində, "Artsax"ın de-yure tanınmasına nail olmaq üçün atırlar. Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında yaratdıqları qondarma "respublika"nı beynəlxalq ictimaiyyətdə tanıtmaq istəyirlər. Şübhəsiz ki, ermənilər bu tədbirləri keçirərkən dünyanın iki super dövlətinin, ABŞ və Rusiyanın adından sui-istifadə edirlər. Ermənilər Krımda "Artsax" ansamblının konsertini təşkil etməklə, erməni icması tərəfindən ABŞ-da "müstəqilik bayramı"nı qeyd etməklə, dünya dövlətlərinin, beynəlxalq ictimaiyyətin diqqətini özlərinə cəlb etmək istəyirlər.

Qondarma "respublika"nın "təşkilatlarının" bu şəkildə tədbirlər keçirməsi və bu tədbirlərin keçirilməsinə guya Rusiyanın, eləcə də ABŞ-ın dəstək verməsini göstərməsi böyük saxtakarlıqdır. Hesab edirəm ki, Azərbaycan dövlətinin əlaqədar qurumları, eləcə də parlamentlərarası dostluq qruplarının təmsilçiləri bu məsələlərə sərt reaksiyasını bildirməli və Azərbaycan həmin dövlətlərə nota verməlidir. Biz bu məsələdə daha kəskin mövqe tutmalıyıq".

***İradə SARIYEVA***

# ABŞ-dan saxta genosidə dəstək və türkdilli dövlətlərin fövqəladə toplantısı...

**Məlum olduğu kimi, ABŞ Nümayəndələr Palatası qondarma "erməni soyqırımı" haqqında qətnamə qəbul edib. Sözügedən qərar tamamilə ədalətsiz və qərəzlidir. Çünki bu qərarın heç bir hüquqi və tarixi əsası yoxdur. ABŞ Konqresinin Nümayəndələr Palatasının bu qətnaməsi açıq siyasi xarakter daşıyır və qardaş Türkiyəyə siyasi təzyiq məqsədilə qəbul edilib.**



***Azər Həsrət:** "Belə bir toplantının keçirilməsi çox faydalı olardı"*

Məsələ ondadır ki, Türkiyə "Sülh bulağı" əməliyyatı ilə ABŞ-ın böyük oyununu, bölgədə həyata keçirmək istədiyi layihəni pozdu. Çünki ABŞ-ın bu böyük oyunu Türkiyənin milli maraqlarına, sərhəd təhlükəsizliyinə ciddi problemlər yaradırdı və terror təşkilatları ilə mübarizəsini çətinləşdirirdi.

ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" ilə bağlı qərarı təkcə Türkiyəyə qarşı yönələn bir qərar deyil. Bu, bütövlükdə, bütün Türk dünyasına qarşı olan bir qərardır. Ona görə də bütün türkdilli dövlətlər birlikdə buna etirazını bildirməlidir. Azərbaycan həmişə Türkiyənin yanında olduğu üçün, buna öz rəsmi etirazını bildirib. Ancaq yaxşı olardı ki, türkdilli dövlətlərin bununla bağlı fövqəladə toplantısı keçirilsin və buna birgə etiraz edilsin. Müqayisə üçün qeyd edək ki, 2017-ci ildə ABŞ Prezidenti Donald Tramp Qüdsün İsrailin paytaxtı kimi tanınması ilə bağlı qərar verdi. Buna etiraz əlaməti olaraq İstanbulda İslam Əməkdaşlıq Təşkilatının fövqəladə Zirvə toplantısı keçirildi. İƏT ölkələri yekdilliklə ABŞ-ın qərarını pislədilər. Bu baxımdan, türkdilli dövlətlərin də qondarma "erməni soyqırımı" ilə bağlı qəbul edilən qətnaməyə etiraz əlaməti olaraq fövqəladə toplantı keçirməsinə ekspertlər necə yanaşırlar?

Məsələyə münasibət bildirən ekspert Azər Həsrətin sözlərinə görə, bununla bağlı türkdilli dövlətlərin fövqəladə toplantı keçirməsinə ehtiyac var: "Belə bir toplantının keçirilməsi çox faydalı olardı. Çünki ABŞ Türkiyəyə və bütövlükdə, Türk dünyasına qarşı bu cür ədalətsizliyə yol verib. Bu, bütövlükdə, Türk dünyasına qarşı yönələn bir addımdır. Ermənilər hər zaman türkə düşmən kimi baxırlar. Sözügedən bədnam qətnamə ermənilərin həyasızlığını daha da artıracaq. Həmin sənədin qəbul edilməsində yəhudi lobbisinin də adı hallanır. Yəni onların dəstəyilə bunun mümkün olduğunu deyirlər. Hesab edirəm ki, bu çox təəssüfləndirici haldır. Bütün hallarda, türk dövlətləri bu məsələyə birmənalı münasibət bildirməlidirlər. Bu baxımdan, türkdilli dövlətlərin fövqəladə toplantısı keçirilməlidir. Azərbaycan dövləti bu kimi məsələlərdə həmişə Türkiyənin yanında olub. Bu dəfə də eyni yanaşmanı sərgiləyib və rəsmi olaraq bu qərarı pisləyib. Yaxşı olardı ki, digər türk dövlətləri də bənzər yanaşma ortaya qoysunlar. Bununla yanaşı, İslam Əməkdaşlıq Təşkilatında təmsil olunan ölkələr də buna etiraz etməlidirlər. İƏT-də təmsil olunan ölkələr bir araya gəlib buna etiraz etməlidirlər. Ən azından, Türkiyə müsəlman aləminin önündə gedən ölkələrdən biridir. İslam ölkələri ilə bağlı ən çətin anlarda Türkiyə ortaya mövqe qoyub. Ona görə də müsəlman ölkələri hamılıqla bu məsələdə ABŞ-a etiraz etməlidirlər. Türk dövlətləri ilə yanaşı, bütün müsəlman ölkələri də Türkiyə ilə həmrəy olmalıdırlar".

*"Çünki bu, bütövlükdə, Türk dünyasına qarşı yönələn bir addımdır"*

***Vidadi ORDAHALLI***

# Azərbaycan ümumtürk mənafelərinə sədaqətini bir daha göstərdi - saxta genosidin tanınmasına qarşı demarş...

**Məlum olduğu kimi, ABŞ-ın Nümayəndələr Palatası 1915-ci il hadisələrini "erməni soyqırımı" kimi tanıyan 296 saylı qətnamə qəbul edib. ABŞ-ın Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı"nı tanımasına Azərbaycan dövləti rəsmən etirazını bildirib.**

Azərbaycan Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Nümayəndələr Palatasının qondarma "soyqırım" qətnaməsini qərəzli və ədalətsiz adlandırıb: "ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" haqqında qəbul etdiyi 296 saylı qətnaməni pisləyir, qərəzli və ədalətsiz hesab edirik".

H.Hacıyev qeyd edib ki, bu qətnamənin heç bir siyasi, hüquqi və tarixi əsası yoxdur, ermənipərəst lobbi qruplarının səyləri nəticəsində qəbul edilib: "Həmin dövrdə baş vermiş hadisələr siyasətçilər deyil, tarixçilər tərəfindən araşdırılmalıdır".

Ermənistan və erməni lobbi dairələri qondarma "erməni soyqırımı"nı siyasi möhtəkirlik obyektinə çevirmişlər. Onlar bu məqsədlə ermənilərin Cənubi Qafqazda və digər regionlarda törətdikləri cinayətləri örtbasdır etməyə çalışırlar. Ona görə də Ermənistan həmin dövrün hadisələrinin birgə tarixi komissiya tərəfindən araşdırılması barədə Türkiyənin təklifini qəbul etmir.

Tarixin saxtalaşdırılması, "tarixin yenidən yazılması" cəhdləri və onun siyasi təzyiq məqsədilə istifadə edilməsi qəbuledilməzdir.

ABŞ Nümayəndələr Palatasının atdığı bu addıma Azərbaycan dövləti kəskin etirazını bildirməklə Türkiyəyə qardaşlıq sədaqətini bir daha göstərmiş oldu. Əlbəttə, Azərbaycandan başqa da dünyada türk respublikaları var. Həmin respublikalar da ABŞ Nümayəndələr Palatasının qəbul etdiyi qərarla bağlı öz mövqelərini bildirməlidirlər. Onu da vurğulayaq ki, tarixən türklər erməniləri yox, ermənilər türkləri genosidə məruz qoyub, onlar Türkiyədə, Azərbaycanda, Orta Asiya respublikalarında kütləvi qətllər törədib, soyqırım həyata keçiriblər.

## **Qasım Hacıyev:** *"Türk dövlətləri həmrəylik nümayiş etdirərək o bədnam qərarın ləğvinə nail olmalıdırlar"*



## *"...bununla türk birliyinə xəyanət etmiş olarlar"*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan həmişə Türk dünyası ilə bağlı baş verən bütün proseslərə operativ reaksiya verir. Q.Hacıyevin sözlərinə görə, Azərbaycan dövlətinin ABŞ Nümayəndələr Palatasının qəbul etdiyi mənfur qərara operativ və kəskin reaksiya verməsi həm Türkiyəyə qardaşlıq sədaqətinin nümunəsidir, həm də digər türk respublikaları üçün bir örnəkdir. Azərbaycanın reaksiyasının ardınca digər türk dövlətləri də ABŞ hökumətinə, ABŞ Nümayəndələr Palatasına qəbul etdikləri qərara görə kəskin etirazlarını bildirməlidirlər. "Erməni lobbisinin qatı tərəfdarlarının təkidilə ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı"nı tanıması ilə bağlı qəbul etdiyi qətnaməyə Azərbaycan dövlətinin kəskin şəkildə etiraz etməsi və bu barədə xüsusi bəyanat verməsi Türkiyəyə qardaşlıq sədaqətindən başqa, həm də digər türk respublikalarına bir mesajdır. Azərbaycan bununla başqa türksoylu, türkdilli dövlətlərə mesaj verir ki, bu məsələdə qardaşlıq həmrəyliyi göstərsinlər. Onillərdir ermənilər ABŞ Nümayəndələr Palatası tərəfindən qondarma "erməni soyqırımı"nın tanınmasına çalışırdılar və bu istiqamətdə təbliğat həyata keçirirdilər. Çox təəssüf ki, onlar buna nail oldular. İndi isə türk dövlətlərinin ABŞ Nümayəndələr Palatasının çıxardığı bu mənfur qərara qarşı birləşməsi, birgə mübarizə aparması gərəkdir. Hesab edirəm ki, Azərbaycanın ardınca Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və digər türkdilli respublikalar bu qətnaməni pisləyən bəyanatlar yaymalı, bu qərarın qəbul edilməsi ilə bağlı kəskin etirazlarını bildirməlidirlər. Biz bu gün türk birliyindən, türk həmrəyliyindən danışırıqsa, bunu sözdə yox, əməldə göstərməliyik. Necə ki, Azərbaycan dövləti hər zaman göstərir".

Q.Hacıyev onu da bildirdi ki, tarixdə baş verməmiş bir "soyqırım"la bağlı hazırlanan qərara ABŞ Nümayəndələr Palatasının tarixi bilməyən təmsilçilərinin imza atması tarixə qara ləkədir. "Nümayəndələr Palatasının üzvləri, ümumiyyətlə, tarixdən xəbərsizdirlər, onlar tarixi bilmirlər, onlar hər şeyi siyasətə, siyasi maraqlara qurban verirlər. Qondarma "erməni soyqırımı"nın Nümayəndələr Palatasında tanınmasına səs verən nümayəndələr XX əsrin əvvəllərində Anadoluda və Cənubi Qafqazda 2 milyondan çox türkü qətlə yetirmiş erməni quldur dəstələrinin vəhşiliklərindən bir dəfə də söz açmırlar. Ermənipərəst konqresmenlər yaxın keçmişdə Qarabağ müharibəsi zamanı dinc azərbaycanlı əhalinin məhv edilməsi barədə, Xocalı soyqırımı, Meşəli, Daşaltı faciələri haqqında danışmaq istəmirlər. Halbuki, bundan danışmalıdırlar.

Biz deyirik ki, XXI əsr türk əsridir. Bu əsrin türk əsri olması üçün türk xalqlarının və dövlətlərinin birliyi olmalıdır. Türkiyənin bu günündə bütün türk dövlətləri Azərbaycandan nümunə götürərək gecikmədən ABŞ Nümayəndələr Palatasının qərarına etiraz etməli və türk dövlətləri həmrəylik nümayiş etdirərək o bədnam qərarın ləğvinə nail olmalıdırlar.

Digər türk dövlətləri ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı"nın tanınması ilə bağlı qəbul etdiyi qərara etiraz etməzlərsə, səslərini qaldırmazlarsa, Türkiyə ilə həmrəylik nümayiş etdirməzlərsə, bununla türk birliyinə xəyanət etmiş olarlar. Biz türk birliyindən danışırıqsa, ortaq türk tarixindən söz açırıqsa, bu məsələdə də həmrəy olmalıyıq" - deyə bildirən Q.Hacıyevin sözlərinə görə, bu məsələdə Azərbaycan dövləti ilə yanaşı, Azərbaycan cəmiyyəti də, elmi ictimaiyyəti də, bütün qurum və təşkilatlar da Türkiyənin yanındadır.

***İradə SARIYEVA***

**ABŞ-ın Federal Ehtiyat Sisteminin (FES) son qərarından sonra dünya maliyyə bazarlarında avronun dollara nisbətdə bahalaşması müşahidə olunur. Azərbaycanda da son bir neçə gündə avronun bahalaşması qeydə alınır. İndi maraq doğuran əsas məsələ manatın qarşıdakı dövr ərzində dollara, avroya nisbətdə taleyinin necə olacağıdır.**

# ABŞ-ın qərarı, qızışan "valyuta müharibələri" manat məzənnəsi ətrafında yeni problem yaradır




Belə görünür ki, bu məsələdə Mərkəzi Bank yenə mühüm rol oynayacaq. Çünki baş bank müdaxilə etməsə, manatın kifayət qədər böyük sürətlə bahalaşması qaçılmaz sayılır.

Məsələ burasındadır ki, Avropa, ABŞ kimi ölkələr pullarını məqsədli şəkildə ucuzlaşdırmaqda artıq maraqlı tərəf qismində çıxış edirlər. Bir həftə əvvəl keçirilmiş Avropa Mərkəzi Bankının iclasında uçot dərəcəsinin 0% səviyyəsində saxlanması barədə qərar qəbul olunub. Bank, həmçinin, depozit faizlərini mənfi 0,5% səviyyəsində, borcvermə faizini isə 0,25% səviyyəsində təsdiqləyib. İndi isə ABŞ-ın Federal Ehtiyat Sistemi uçot dərəcəsi ilə bağlı yeni qərarını açıqlayaraq, onu 1,5-1,75%-ə qədər endirib. Qeyd edək ki, Federal Ehtiyat Sistemi il ərzində artıq üçüncü dəfədir uçot dərəcəsini azaldır. Ekspertlər uçot dərəcəsinin bundan sonra da endiriləcəyini proqnozlaşdırır. Faiz azalması ABŞ prezidenti Donald Trampın uçot dərəcəsinin yüksək olması ilə bağlı tənqidləri fonunda baş verir. Qarşıdakı dövr ərzində də dərəcələrin azalması dolların digər valyutalara nisbətdə ucuzlaşmasını qaçılmaz edəcək və bura manat da daxildir. Hesab edilir ki, belə vəziyyətdə Azərbaycan manatı üzərində təzyiqlər artacaq.

Federal Ehtiyat Sisteminin qərarları manatın dollara nisbətdə möhkəmlənməsi baxımından milli valyutaya təzyiqlərin artmasına az təsir etmir. Digər tərəfdən, buna neft gəlirlərindən tutmuş ölkənin ixracının artmasından tutmuş, turizm və digər sektorlar üzrə valyuta daxilolmalarının çoxalmasına kimi çoxsaylı amillər təsir edir. Eləcə də dünya maliyyə bazarlarında baş verənlər, xüsusən də dolların uçot dərəcəsinin azalması kimi faktorlar, qeyd olunduğu kimi, bu prosesə ciddi təsir edir. Federal Ehtiyatlar Sisteminin bundan sonra da uçot dərəcəsini azaltması fonunda isə manata təzyiqlərin daha da artması qaçılmaz sayılır. Aydındır ki, ABŞ yenidən uçot dərəcələrini endirmək istiqamətində addımlar atsa, dollar dünya bazarında, eləcə də Azərbaycanda əhəmiyyətli dərəcədə ucuzlaşa bilər. Bunun qarşısı isə yenə Mərkəzi Bankın müdaxiləsi ilə alına bilər.

Başqa bir tərəfdən, ABŞ və Avropanın addımları həm də dünya miqyasında "valyuta müharibəsini" qızışdırır. Çünki yaranmış vəziyyətdə böyük iqtisadiyyata malik Çin və bir sıra digər Asiya ölkələri, eləcə də qonşu Rusiya milli valyutasını ucuzlaşdırmaq istiqamətində addım atmağa hazırlaşır. ABŞ-ın son addımı bu prosesi əhəmiyyətli dərəcədə sürətləndirir. Ümumiyyətlə, Amerika son vaxtlar dünyada "ticarət müharibələri" ilə yanaşı, "valyuta müharibələrinin" də getməsi fonunda ixracatı yüksək olan hər bir ölkə kimi öz milli valyutasının dəyər qazanmasını istəmir. Son dövrlərə qədər isə FES-in faiz artırmaları digər valyutalar qarşısında dolların bahalaşmasına səbəb olmuşdu. Bu bahalaşma Amerikanın ixracat potensialına zərbə vururdu. Amma ABŞ hökuməti buna qarşı olduğu üçün FES faiz dərəcələrini azaldır. Ekspertlər hesab edir ki, bu, dünyada gedən "valyuta müharibələri"nin tərkib hissəsidir. Digər tərəfdən, Çinin, Avropa Birliyinin mərkəzi bankları da buna paralel olaraq faiz dərəcələrini aşağı salmaq niyyətindədir. Bu da dünyada "ticarət müharibələrilə" yanaşı, "valyuta müharibləri"nin daha qızışmasına səbəb olmaqdadır. Uçot dərəcəsinin aşağı salınması isə, yuxarıda qeyd olunduğu kimi, manata da təsirsiz ötüşmür. Bunun qarşısını isə indilikdə baş bank alır. Mərkəzi Bank etiraf edir ki, manat üçün tənzimlənən məzənnə rejimi tətbiq olunur. Artıq bir neçə ildir ki, inzibati üsulla olsa belə, manat dollar qarşısında sabit məzənnəni qoruyub saxlaya bilir. Amma "valyuta müharibləri"nin qızışması manatın məzənnəsinin sabit saxlanmasını daha çətin hala gətirəcək. Buna rəğmən görünən budur ki, ölkənin baş bankı dollar-manat məzənnəsinin sabit qalması istiqamətində fəaliyyət göstərməli olacaq. Çünki 2020-ci il üçün dövlət büdcəsində manat-dollar məzənnəsinin 1.7 səviyyəsində olması nəzərdə tutulur. Məsələnin maraqlı tərəflərindən biri isə neftin qiyməti ilə bağlıdır. Belə ki, dolların ucuzlaşması avtomatik olaraq neftin qiymətini bahalaşdıracaq. Artıq Azərbaycan neftinin satış qiyməti yenidən 67 dolları ötüb.

Gələn il üçün isə büdcədə neft qiyməti 55 dollardan götürülüb. Amma baş verən bir çox hadisələr neftin qiymətinin ən azından 65 dollarlıq həddə qalacağını göstərir. Deməli, Azərbaycanın neft gəlirləri yenə nəzərdə tutulduğundan yüksək olacaq və bu da manata əlavə təzyiq yaradan faktorlardan sayılır. Yüksək qiymət Azərbaycana daxil olan valyutanın həcminin əhəmiyyətli dərəcədə artımı deməkdir. Artan valyuta da, öz növbəsində, manat üzərində təzyiqin daha da artmasına rəvac verir. Ekspertlər isə bildirir ki, neftlə yanaşı "valyuta müharibəsi" də qızışacağı təqdirdə Mərkəzi Bank üçün manatın məzənnəsini sabit saxlamaq çətin olacaq. Əksinə, belə olan haldı Mərkəzi Bank manatın tədricən güclənməsinə imkan vermək məcburiyyətində də qala bilər. İndilikdə hesab edilir ki, Mərkəzi Bank artıq yeni ssenarilərə hazır olmalıdır. Çünki müdaxilə olmasa, dollar, avro, eləcə də bir sıra digər valyutaların manat qarşısında dəyər itirməsi qaçılmaz sayılır.

Xatırladaq ki, gələn ildən Azərbaycan həm də qaz ixracından xeyli valyuta əldə edəcək. Qeyri-neft ixracının artımı da ölkəyə valyuta gəlişini çoxaldır. Bütün bunlar manatı daha da bahalaşdıran amillər sırasında yer alır. Deməli, manat gələn il gözlənildiyindən də ciddi təzyiq altında olacaq.

***Nahid SALAYEV***

# İcbari tibbi sığortada 40 milyon illik kəsir və yeni sistemə keçid...

**Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) maliyyə hesabatına əsasən, məlum olub ki, İTSDA 2018-ci ili 39,543 milyon manat xalis zərərlə başa vurub. Nəticədə isə agentliyin bölüşdürülməmiş zərəri 2,3 dəfə artaraq 70,32 milyon manata çatıb.**



***İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi:*** *"Sığortahaqlarının yığımı 2018-ci ildə olmadığı və dövlət büdcəsindən daxil olan məbləğ gəlir kimi tanınmadığı üçün, ötən il zərərlə bitib"*

***Adil Qeybulla:*** *"Agentliyin ötən ili zərərlə başa vurması icbari tibbi sığortanın 2020-ci ildə tətbiqinə təsir edəcək"*

Məlumdur ki, gələn il ölkə üzrə icbari tibbi sığortanın tətbiq olunması gözlənir. Artıq bununla bağlı görülən işlərin yekunlaşmaq üzrə olduğu deyilir. Maraqlıdır, İcbari Tibbi Sığorta Agentliyinin 40 milyon manat dəyərində zərər etməsi 2020-ci ildən tətbiq ediləcək tibbi sığortaya təsir edə bilərmi? Yaranmış vəziyyət icbari tibbi sığortanın tətbiqini ertələyə bilərmi?

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi "Bakı-Xəbər"in sorğusunu cavablandırarkən bildirib ki, sığortahaqlarının yığımı 2018-ci ildə olmadığı və dövlət büdcəsindən daxil olan məbləğ gəlir kimi tanınmadığı üçün, ötən il zərərlə bitib: "Agentliyin konsolidə olunmuş maliyyə hesabatlarına dair kənar auditor rəyi ilə bağlı açıqlamasına görə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) Nizamnaməsinin 4.5.18-ci bəndinə əsasən, öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir. Nizamnamənin tələbini rəhbər tutaraq, agentlik 2018-ci il üzrə illik maliyyə hesabatının auditini böyük dördlük adlanan audit şirkətlərindən biri olan "PwC Azerbaijan" MMC-yə həvalə edib. Öz fəaliyyətində daim şəffaflığın təmin olunmasına önəm verən agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, konsolidə edilmiş maliyyə hesabatlarına dair kənar auditor rəyini qurumun rəsmi internet səhifəsində yerləşdirib.

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə agentliyin və onun törəmə müəssisələri üçün (birlikdə "Qrup" adlandırılır) Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanıb. Nəzərinizə çatdırırıq ki, "Hökumət subsidiyalarının uçotu və hökumət yardımı haqqında məlumatın açıqlanması" adlı 20 nömrəli Mühasibat Uçotunun Beynəlxalq Standartının 2 (c) bəndinə əsasən, dövlət büdcəsindən daxil olan vəsaitlər agentliyin gəliri kimi tanınmadığı üçün, həmin vəsaitlər agentliyin konsolidasiya edilmiş mənfəət və ya zərər və s. məcmu gəlir haqqında hesabatında qeyd olunub. Sözügedən vəsaitlər agentliyin konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatında kapital bölməsinin sair ehtiyatlar bölməsində əks etdirilib. Bununla da illər üzrə dövlət büdcəsindən daxil olan vəsaitlərin gəlir kimi tanınmamaması səbəbindən agentlik müvafiq illəri zərərlə başa vurub. Agentliyin əsas əməliyyat gəlirləri yığılmış sığortahaqları hesab edilir. Sığortahaqlarının yığımı 2018-ci ildə olmadığı, həmçinin, dövlət büdcəsindən daxil olan məbləğlərin gəlir kimi tanınmaması ilə əlaqədar ötən il zərərlə bitib.

Ötən ilin tanınmış gəlirləri isə cəmi 1 milyon 543 min manat olub ki, bura baza zərfi ilə əhatə olunmayan (istisnalar zərfi) tibbi xidmətlərin göstərilməsindən əldə olunan gəlirlər və ödənilən azadolma məbləği aiddir. Hesabatda qeyd olunduğu kimi, 2018-ci ildə pilot ərazilərdəki vətəndaşların istifadə etdiyi tibbi xidmətlərin maya dəyəri 30 milyon 340 min manat təşkil edib, agentliyin ümumi və inzibati xərcləri 11 milyon 306 min manat təşkil edib. Ötən ilin sonuna agentliyin nizamnamə kapitalı 4 milyon manat, qrupun cəmi kapitalı 70 milyon 536 min təşkil edir. Qrupun aktivləri 73 milyon 609 min manat təşkil edib ki, bu aktivlərin 85%-i uzunmüddətli aktivlərdir. Qrupun uzunmüddətli öhdəlikləri mövcüd deyil, qısamüddətli öhdəlikləri 3 milyon 73 min təşkil edib. Qeyd edək ki, agentlik publik hüquqi şəxsdir və məqsədi mənfəət qazanmaq deyil. Bundan başqa, icbari tibbi sığortanın pilot layihə kimi tətbiq olunduğu ərazilərdə (Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonları) baza zərfi çərçivəsində 340 min sakinə göstərilən tibbi xidmətlər pulsuzdur. Bu da, öz növbəsində, hesabatda xərclərin gəlirləri üstələməsinə təsir edən vacib amillərdən biridir".

Professor, tibbi ekspert Adil Qeybulla bizimlə söhbətində qeyd etdi ki, 2020-ci ildə səhiyyənin büdcəsi 2 milyard manata çatmalıdır. Bu vəsaitin icbari tibbi sığorta paketində necə yer alacağı sual doğurur: "İcbari tibbi sığortanın effektliyi ona qoyulan vəsaitdən asılıdır. Bu vəsait xəstələrin minimum ehtiyaclarını ödəməlidir. Bizdə sığorta üçün yığılan vəsait xidmətləri tam qarşılamağa yetərli deyil".

Ekspert hesab edir ki, agentliyin ötən ili zərərlə başa vurması icbari tibbi sığortanın tətbiqinə təsir edəcək: "Məlumdur ki, 2020-ci ildə icbari tibbi sığorta paketinin bütün ölkə üzrə tətbiqi gözlənir. Bu zərər, istər-istəməz, icbari tibbi sığortanın tətbiqinə təsir edəcək".

***Günel CƏLİLOVA***

# Bankların kredit yarmarkaları - istehlak kreditlərindən real kreditlərə keçmək mümkün olacaqmı...

**15 oktyabr 2019-cu il tarixində ölkə rəhbəri cənab İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib, dövlət başçısı tərəfindən ölkə iqtisadiyyatının müxtəlif istiqamətləri ilə yanaşı, maliyyə bazarlarındakı cari vəziyyət, sektorun effektivliyinin və dayanıqlığının artırılması baxımından həyata keçirilən islahatlara toxunulub, qarşıdakı dövr üçün konkret hədəflər və vəzifələr müəyyənləşdirilib, tapşırıqlar verilib.**




***Ruslan Atakişiyev:*** *"Kredit yarmarkalarının təşkil edilməsində məqsəd əhalidə və sahibkarlar arasında biznes kreditlərindən istifadəyə marağın artırılmasıdır"*

Sözügedən müşavirədə dövlət başçısı tərəfindən maliyyə-bank sektoru ilə əlaqədar verilmiş tapşırıqların icrası məqsədilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının təşkilatçılığı, Azərbaycan Banklar Assosiasiyasının, həmçinin, ölkədə fəaliyyət göstərən istehlakyönümlü bankların iştirakı ilə iclas təşkil olunub. İclasda biznes kreditlərinin təşviqi məqsədilə banklar tərəfindən kredit yarmarkalarının keçirilməsi məqsədəuyğun hesab edilib.

Danılmaz faktdır ki, bu gün banklar istehlak kreditlərinin verilməsinə daha çox üstünlük verir. Təbii ki, istehlak kreditlərinin biznes kreditlərindən üstünlük təşkil etməsi iqtisadiyyatın inkişafına mənfi təsir göstərir. Dəfələrlə ölkə başçısı İlham Əliyev real sektora kreditin az ayrılması məsələsinə toxunub və bu problemin qısa müddətdə həll olunması üçün tapşırıqlar verib. Lakin banklar yenə biznes kreditlərinə deyil, istehlak kreditlərinin verilməsinə daha çox diqqət ayırıb.

Maraqlıdır, banklar tərəfindən biznes kreditlərinin təşviqi məqsədilə kredit yarmarkalarının keçirilməsi biznes kreditlərinə marağı artıra bilərmi?

*"Biznes kreditlərinin qoyuluşunun artması üçün faiz dərəcələri enməlidir"*

İqtisadçı-ekspert Ruslan Atakişiyev bildirdi ki, kredit yarmarkalarının təşkil edilməsində məqsəd əhalidə və sahibkarlar arasında biznes kreditlərindən istifadəyə marağın artırılmasıdır: "Yarmarkalarda, sadəcə, kredit məhsulları yox, digər bank məhsulları da təqdim edilməli və təşviq olunmalıdır. Yarmarkalarda qiymətli kağızlar bazarı, birgə investisiyalar, payçı kimi iştirak haqqında məlumat verilməli, burada iştirakın əhəmiyyəti izah edilməlidir".

R.Atakişiyevin sözlərinə görə, biznes kreditlərinin qoyuluşunun artması üçün faiz dərəcələri enməlidir: "Bu məqsədlə alternativ maliyyə məhsullarından istifadə genişləndirilməlidir.

Əks təqdirdə kredit faizlərində enmə olmayacaq. Bazarda formalaşmış biznes kredit faizləri var. Sahibkarlar da bu faizlərlə kredit götürərək bizneslə məşğul olurlar. Ayrılıqda hansısa bank biznes kreditləri üzrə faizləri aşağı salmaqda maraqlı olmaz. Çünki bu halda ümumi formalaşmış bazar qiyməti aşağı düşəcək ki, bu da banklara sərf etmir".

***Günel CƏLİLOVA***

№ 194 (4092) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

1 NOYABR 2019-cu il

www.baki-xeber.com

# Alimlər insan hüceyrələrinin çox sürətli 3D çap üsulunu hazırlayıblar

**İnsan toxumaları və orqanlarının 3D çapı üzrə mövcud metodlar bir mühüm çatışmazlığa malikdir: bu proses çox vaxt tələb edir.**

Məsələn, saniyədə bir neçə millimetr çap etmək mümkündür ki, bu da hüceyrələrin yaşaması üçün böyük problemdir. Vyana Texnologiya Universitetinin alimləri çap müddətini xeyli azalda biləcək yeni bir metod hazırlayıblar. "İctnews.az" bildirir ki, yüksək təsvir ölçülü yeni bioçap prosesi üçün xüsusi biomürəkkəb tələb olunur. Alimlər bildirirlər ki, yeni 3D çap üsulunun əsasını yüksək dəqiqlikli çox nazik üçölçülü strukturlar yaratmaq üçün əlverişli olan ikifotonlu polimerləşmə metodu təşkil edir. Professor Aleksandr Ovsyanikovun sözlərinə görə, üçölçülü strukturlardan istifadə hüceyrələrdəki davranışı əvvəllər mümkün olmayan dəqiqliklə öyrənməyə imkan verir. Bu, xəstəliklərin yayılmasını öyrənmək imkanını və kök hüceyrələrindən istifadə etməklə fərdi sifariş üzrə insan toxuması hazırlamağı mümkün edir. Yeni bioçap üsulunun digər mühüm xüsusiyyəti onun sürətidir.



## Dünyada ən kiçik pilotsuz təyyarə təqdim edilib

ABŞ-ın "DJI" şirkətinin "Mavic Mini" adlı yeni pilotsuz təyyarəsi ovucun içinə yerləşir. Cihazın çəkisi yüngül olduğu üçün ABŞ Federal Aviasiya Administrasiyasında (FAA) qeydiyyatdan keçməyə ehtiyac yoxdur. "ICTnews" xəbər verir ki, bu pilotsuz təyyarənin çəkisi 249 qramdır. 250 qram və daha çox ağırlığı olan cihazların FAA qeydiyyatı tələb olunduğu üçün şirkət hazırladığı dronun çəkisini mümkün qədər azaldıb. Buna görə "DJI" şirkətindən bildirilib ki, "Mavic Mini" cihazının sahibləri bürokratik maneələr olmadan pilotsuz təyyarədən istifadə edə bilərlər. Pilotsuz təyyarənin maksimal uçuş müddəti 30 dəqiqədir, qiyməti təxminən 495 dollar təşkil edəcək. "Mavic Mini" pilotsuz təyyarəsi 2.7K təsvir ölçülü kamera ilə təchiz edilib. Bu, "Mavic Air" və "Mavic Pro" modellərinə quraşdırılmış 4K kamerası ilə müqayisədə bir qədər aşağı göstəricidir. Pilotsuz təyyarə hələ ki satışa çıxarılmayıb, bu il oktyabrın 30-dan etibarən ABŞ-da satın almaq mümkün olacaq.



# Binaları görünməz edəcək xüsusi "material" hazırlandı

**Kanadanın hərbi kamuflyaj forma istehsalçısı "HyperStealth Biotechnology Corporation"dan tədqiqatçılar bir insanı, nəqliyyat vasitəsini, gəmini və hətta bütün binanı gizlədə biləcək bir xüsusi material hazırladılar.**

"Techland.az" bildirir ki, materialın çox nazik və yüngül olduğunu ifadə edən "Hyperstealth" şirkətinin "CEO-su Guy Cramer Quantum Sheath"in heç bir enerji təchizatına ehtiyacı olmadığını söylədi. Cramer, materialın əhatəsində olan bir insanın, nəqliyyat vasitəsinin və ya binanın ultrabənövşəyi (UV), infraqırmızı və qısa dalğalı infraqırmızı sistemlərdə belə görünmədiyini göstərir. Cramer, ilk öncə yaratdığı texnologiya ilə bağlı səssiz qalmaq istədiyini və yalnız müttəfiq qüvvələrə girməyə icazə vermək olduğunu bildirdi və təəssüfki patentlərin ortaya çıxdı. "Quantum Sheath"ın terrorizm və digər cinayətkarlıq fəaliyyətlərində istifadə edilə biləcəyinə işarə edərək, "Hyperstealth" şirkətinin baş direktoru bu cür dəhşətli ssenarilərin nəzərə alınması lazım olduğunu söylədi. Cramer, bir az əyilmiş materialdan hazırlanan "Quantum Sheath"in istehsal tarixi və qiyməti ilə bağlı heç bir məlumat paylaşmadı.

## "Azercell"in dəstəyilə V Uşaq Paralimpiya Oyunları keçiriləcək

**"Azercell Telekom" MMC və UNİCEF-in Azərbaycan nümayəndəliyinin dəstəyi, Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə 14 noyabr tarixində Abşeron Olimpiya İdman kompleksində V Uşaq Paralimpiya Oyunları keçiriləcək. Oyunlarda ölkəmizin müxtəlif bölgələrindən olan iştirakçılar 7 idman növündə yarışacaq. Yerli idmançılarla yanaşı, Gürcüstan Respublikasından olan iştirakçılar da qalib gəlmək uğrunda mübarizə aparacaq. Ümumilikdə, oyunlara 163 paralimpiyaçının qatılacağı gözlənir.**

Hər zaman sosial layihələrin təşəbbüskarı kimi tanınan "Azercell Telekom" MMC 2014-cü ildən etibarən Uşaq Paralimpiya Komitəsinin fəaliyyətini dəstəkləyir. Bununla da şirkət sağlamlıq imkanları məhdud uşaqların və yeniyetmələrin cəmiyyətə inteqrasiyasına öz töhfəsini verir.

Qeyd edək ki, 2013-cü ildə beynəlxalq təcrübədə ilk dəfə olaraq Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi yaradılıb. Komitənin fəaliyyətinin əsas məqsədi sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb olunması yolu ilə ehtiyat idmançıların hazırlanması, onların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasının təmin edilməsidir. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Şəki şəhər sakini Abdurəhimov Şacəddin Nizaməddin oğlunun adına verilmiş 2547 / 439 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Salmanov Rafiq İsmayıl oğlunun adına verilmiş Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Gün sizin üçün uğurlu keçəcək. Həm öz işləriniz, həm də başqaları üçün gördüyünüz işlər uğurlu alınacaq. Özünüzü tam bir lider kimi hiss edə bilərsiniz. Sizdə insanları arxanızca aparmaq qabiliyyəti var.

**Buğa** - Bu gün pozitiv fikirlər sizi cənginə alacaq. Bu günün yeganə təhlükəsi - israfçılıq və maliyyə itkiləri ola bilər. Bu da sizin ekstravaqantlığınızdan irəli gəlir. Öz intuisiyanıza inanın.

**Əkizlər** - Bu günü elə planlaşdırın ki, faydalı işlərlə maraqlı işlər bir-birini əvəz etsin. İşgüzar görüşlər yaxşı keçir, əvvəllər sizin nöqteyi-nəzərinizlə razılaşan insanların dəstəyini qazana bilərsiniz.

**Xərçəng** - Öz planlarınıza yenidən baxın, əsas olanları ikinci dərəcəlilərdən ayırmağa çalışın, lazımsızları kənarlaşdırın. Bu gün bir sıra xoş sürprizlərlə qarşılaşacaqsınız. Bəzi vərdişlərinizi tərgitməli olacaqsınız, lakin sonda bu, sizi sevindirəcək.

**Şir** - Siz doğru yol seçmisiniz və ondan yayınmayın. Öz planlarının üstündə duranların uğur üzünə güləcək. Nə istədiyinizi yaxşı bilirsiniz, bu da sizə kömək edəcək ki, lazımsız narahatlıqlar yaşamayasınız.

**Qız** - Bu gün uğur qazanmaq istəyirsinizsə, az risk edin və tələsməyin. Bu gün uğur qazana bilməyənlər ancaq tənbəllər ola bilər. Vaxt itirməkdən qorxmayın. Siz nəyə can atırsız, o, sizdən qaçmayacaq.

**Tərəzi** - Çox çətin bir gündür. Qarşınızda duran sualların çoxuna cavab tapa bilməyəcəksiniz. Hərdən özünüzə inamınızı itirirsiniz. İşlərin sizin xeyrinizə başa çatacağına heç bir ümidiniz yoxdur.

**Əqrəb** - Əgər sizin qarşınızda böyük məqsədlər varsa, həmin məqsədi reallaşdırmaq üçün bugünkü böyük şansınızdan istifadə edin. Ancaq bunun üçün çoxlu çalışmalısınız. Pullarla bir az diqqətli olun.

**Oxatan** - Çətin vəziyyətə düşə bilərsiniz. Problemləri təkbaşına həll etməyi ağlınıza belə gətirməyin. Əgər siz kömək üçün kiməsə müraciət etsəniz, vaxta və gücünüzə qənaət etmiş olarsınız.

**Oğlaq** - Heç nədən qorxmayın. Bu günün həyəcanı, sınağı sizin nə qədər cəsarətli və əmin olduğunuzu göstərəcək. Əgər siz qarşınıza məqsəd qoysanız, hər bir çətinliyin öhdəliyindən gələcəksiz.

**Dolça** - Gün elə də pis keçmir, amma bir problem ola bilər ki, siz öz bacarıqlarınıza inanmırsınız və onları qiymətləndirmirsiniz. Əgər ciddi problemlərlə üzləşmək istəmirsinizsə, bütün işlərə ciddi yanaşın.

**Balıqlar** - Bu günün əkizlər üçün sürprizlər və gözlənilməz hadisələrlə dolu bir gün olacağı gözlənilir. Çox güman ki, bunlara görə siz öz planlarınızı dəyişəcəksiniz. Ancaq gün çox dolu bir şəkildə keçəcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın təbii maye qazla işləyən ilk yedək gəmisi...

**Gələn il Şimali Avropada təbii maye qazla işləyən ən böyük yedək gəmi istismara veriləcək.**



"Seanews.az" bildirir ki, hazırda gəminin tikintisi üzrə son işlər görülür. İnşa prosesi Şanxay yaxınlığında yerləşən "Hudong-Zhonghua Shipbuilding" şirkəti tərəfindən həyata keçirilir. Gəmidə tutumu 18.6 min kubmetr olan innovativ tanklar quraşdırılıb. 135 metr uzunluğu olan bu gəmi liman və terminallardakı əməliyyatların təhlükəsizliyini təmin edən manevr qabiliyyətinə malikdir.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

***e-mail: azer22@mail.ru***

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.